EVDƏ QAL, SAĞLAM QAL!

Vətəndaş məktubları: “Cənab Prezident, bir daha əmin olduq ki, xalqımızın sağlamlığı, rifahı Sizin üçün hər şeydən önəmlidir”



Bax 8

Milli Məclisin növbəti plenar iclası keçirilib



Bax 10



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 074 (6039) 2 may 2020-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

Bax 2



## “Prokurorluq orqanlarında daha genişmiqyaslı islahatlara ehtiyac var”

*Azərbaycan Prezidenti İlham Əliyev Baş prokuror Kamran Əliyevi videoformatda qəbul edib*

## Baş prokuror Kamran Əliyev kollektivə təqdim edilib



Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev və Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov respublikanın yeni təyin olunmuş Baş prokuroru Kamran Əliyevi prokurorluğun kollektivinə təqdim edib...

Bax 10

## “Xalqın içinə çıxmağa üzü olmayan nazir gedib evində otursun”

Bax 4



“Xalqın içinə çıxmağa üzü olmayan nazir gedib evində otursun”. SİA-nın məlumatına görə, bunu Milli Məclisin dünən keçirilən iclasında “Hesablama Palatasının illik hesabatı haqqında” məsələnin müzakirəsi zamanı Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov deyib.

## Dövlət Təhlükəsizliyi Xidməti Biləsuvarda keçirdiyi əməliyyat-istintaq tədbirləri barədə məlumat yayıb



Bax 4

Azərbaycan Respublikası ərazisində xüsusi karantin rejiminin tətbiq edildiyi, dövlət strukturlarının fəaliyyətinin əhalinin sağlamlığının qorunması istiqamətində səfərbər olunduğu bir vaxtda bəzi vəzifəli şəxslərin mövcud vəziyyətdən şəxsi maraqları naminə istifadə edərək vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının fəaliyyətinə kölgə salan hüquqazidd əməllərə yol vermələrinə dair məlumatlar əsasında araşdırma tədbirləri həyata...

## “Prezidentin addımı korrupsiyaya qarşı daha ciddi mübarizə aparılacağına bir işarədir”



“Ümumiyyətlə, bu gün hansısa dövlət özündə islahatları aparıb dünya ilə ayaqlaşa bilmirsə, o istər-istəməz məhvə məhkumdur...

Bax 7

## Ölkə ərazisində xüsusi karantin rejimi mayın 31-dək uzadıldı

Bax 5



*Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək xüsusi...*

## Həkimlər açıqladı: Köçəryan ölüm yatağında!

Bax 6



Aprelin 28-də müayinə üçün xəstəxanaya köçürülən Ermənistanın həbsdə olan keçmiş prezidenti Robert Köçəryanın əməliyyat edilməsi tələb olunur. Teleqraf.com xəbər verir ki, bu barədə xəstəxananın baş həkimi Armen Çarçyan açıqlama verib.

Erməni KİV-ləri: “Hakimiyyət Paşinyanın əlindən sürüşüb-çıxır”



Bax 12

REAL-dan çayxana müxalifətinə: “düşük”, tərbiyəsiz” və “vicdansız”



Bax 14

“Barselona” 19 yaşlı futbolçuya “elçi düşüb”



Bax 16

# "Prokurorluq orqanlarında daha genişmiqyaslı islahatlara ehtiyac var"

*Azərbaycan Prezidenti İlham Əliyev Baş prokuror Kamran Əliyevi videoformatda qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev qeyd edib ki, bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac var:

- Siz bu gün Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilirsiniz. Ümid edirəm ki, bu yüksək etimadı doğruldacaqsınız. Siz prokurorluq orqanlarında 30 ildən çoxdur ki, işləyirsiniz. Hələ sovet dövründən bu işə başlamısınız və son 6 il ərzində Azərbaycan Respublikası Baş prokurorunun müavini vəzifəsində çalışırsınız. Ümid edirəm, əldə olunmuş təcrübə sizə imkan verəcək ki, prokurorluq orqanlarının işinin təkmilləşdirilməsi və islahatların dərinləşməsi istiqamətində nəticələr əldə edilsin.



Bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac var. Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Tərəqqi islahatlarsız mümkün deyil. Ona görə hüquq mühafizə orqanlarında da digər sahələrdə olduğu kimi, islahatlara böyük ehtiyac var. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq.

Bu gün siyasi sahədə çox genişmiqyaslı islahatlar aparılır. Deyə bilərəm ki, müstəqillik dövründə miqyasa və nəticəyə görə bu günə qədər islahatların bu səviyyədə aparılması müşahidə edilmirdi. Hakimiyyət tərəfindən təklif edilmiş siyasi dialoq demək olar ki, baş tutur və biz artıq bu dialoqun ilkin müsbət təzahürlərini görürük. Demək olar ki, ölkəmizin bütün əsas siyasi qüvvələri bu dialoqa qoşularaq buna öz müsbət münasibətini bildirmişlər. Beləliklə hesab edirəm ki, növbəti illərdə siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması işində önəmli addımlar atılacaqdır. Bir daha bildirməliyəm ki, Azərbaycanda heç kim öz siyasi baxışlarına, siyasi mənsubiyyətinə, siyasi fəaliyyətinə görə təqib edilməməlidir.

Eyni zamanda, iqtisadi islahatlar aparılmadan ölkəmizin dayanıqlı inkişafı mümkün deyil. Mən hələ bir neçə il bundan əvvəl demişdim ki, biz postneft dövrünə hazırlaşmalıyıq və əslində postneft dövrü artıq göz qabağındadır. Çünki neft bazarlarında müşahidə olunan böhran demək olar ki, neftlə zəngin olan bütün ölkələrin gəlirlərinə çox mənfi təsir göstərmişdir. Ona görə bizim əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və bu istiqamətdə əldə edilmiş nəticələr məhz islahatlara söykənir, aparılan islahatların nəticəsidir. Məhz şəffaflıq, dürüstlük və islahatlar nəticəsində keçən il büdcə daxilolmalarının həcmi proqnozdan əlavə bir milyard manat artmışdır və bu vəsait böyük dərəcədə imkan vermişdir ki, bir çox sosial layihələr icra edilsin. Bu ilin birinci rübünün yekunları göstərir ki, pandemiyaya baxmayaraq iqtisadi artım var. Düzdür, çox kiçik rəqəmlərlə ölçülür - 1,1 faiz. Ancaq bu yaxınlarda Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərliyi ilə keçirdiyim görüş əsnasında məlum oldu ki, bir çox ölkələrdə indi iqtisadi tənəzzül müşahidə olunur. Bizdə də bu, istisna edilmir, çünki pandemiya ölkə iqtisadiyyatına çox böyük mənfi təsir göstərmişdir. Ancaq hər halda birinci rübün yekunları göstərir ki, iqtisadiyyat 1,1 faiz, qeyri-neft iqtisadiyyatımız isə 3 faizdən çox artmışdır. Bütün bunların əsas səbəbi aparılan islahatlardır və bu, bizə imkan verir ki, sosial sahədə çox genişmiqyaslı proqramlar icra edilsin, o cümlədən keçən il 4,2 milyon insanın sosial vəziyyəti yaxşılaşmış, minimum əməkhaqları, minimum pensiyalar, müavinətlər əhəmiyyətli dərəcədə artmışdır. Koronavirusa görə bu il bu istiqamətdə əlavə addımların atılması təmin edilmişdir. Bu addımlar bir daha göstərdi ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prokurorluq orqanları üçün də bu əsas məqsəd, həmişə, bütün işlərdə əsas amil kimi dəyərləndirilməlidir.

Kadr islahatları aparılır və bu islahatlar imkan verib ki, yeni peşəkar, bilikli, müasir kadrlar önə çəkilsin. Onlara önəmli vəzifələr həvalə edildi və hesab edirəm ki, bu da zəmanənin tələbidir. Çünki bu gün müasir dünyada siyasi, iqtisadi sahələrdə, beynəlxalq müstəvidə müasir yanaşmalar olmalıdır. Yüksək keyfiyyətli təhsil almış gənc kadrların həm hökumətdə, həm Prezident Administrasiyasında, parlamentdə və digər qurumlarda təmsil olunması bizim şüurlu seçimimizdir. Təbii ki, təcrübəli kadrlar da öz biliklərini gənc nəsillə bölüşməlidirlər. Belə olan halda təbii ki, hüquq mühafizə orqanlarında da daha genişmiqyaslı islahatların aparılması başlıca şərtdir. Burada sizin üzərinizə böyük vəzifə düşür və ümid edirəm ki, siz bu vəzifənin öhdəsindən gələcəksiniz. İlk növbədə, qanunun aliliyi tam təmin edilməlidir və ədalətli cəmiyyətin qurulması üçün qanunun aliliyi başlıca şərtdir. Əfsuslar olsun ki, biz istədiyimizə hələ də tam nail olmamışıq, o cümlədən hüquq mühafizə orqanları tərəfindən qəbul edilmiş qərarlar bəzi hallarda qanunlara ziddir, sosial ədaləti pozur, insanları haqlı olaraq narazı salır və beləliklə ümumi işimizə böyük ziyan vurur. Bunun səbəblərindən biri qeyri-peşəkarlıq ola bilər, ancaq bəzi hallarda bunun arxasında hansısa maraqlar, şəxsi tamənna dayanır. Bu gün bütün hüquq mühafizə orqanlarının əməkdaşları və rəhbərləri məni eşidirlər. Mənim sözlərim onlar üçün əsas göstəriş olmalıdır ki, Azərbaycanda hüquq mühafizə sistemində islahatlar dərinləşsin və qanunun aliliyi təmin edilsin.

Kadrların peşəkarlığı da daim diqqət mərkəzində olmalıdır və siz bu məsələ ilə ciddi məşğul olmalısınız. Həm bu gün fəaliyyətdə olan kadrların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməlidir, prokurorluq orqanlarına yeni qəbul olunacaq işçilər yüksək peşəkarlığa malik olmalıdırlar, eyni zamanda, bu vacib amillə bərabər, dövlətçiliyə sədaqət prinsipləri də həmişə üstün olmalıdır. Çünki bu gün müstəqil dövlətimizin uğurlu yaşaması və möhkəmlənməsi, ilk növbədə, dövlətçiliyimizin möhkəmləndirilməsi ilə bağlıdır. Biz elə etməliyik ki, Azərbaycan bundan sonra da uğurla inkişaf etsin, müstəqilliyimiz daim möhkəmlənsin. Əlbəttə ki, istənilən sahədə kadrlar dövlətə, xalqa bağlı olmalıdırlar, vətənpərvər olmalıdırlar və onlar üçün dövlət maraqları hər şeydən üstün olmalıdır.

Digər vacib vəzifələrdən biri korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədir. Hesab edirəm ki, prokurorluq orqanları bu istiqamətdə daha fəal iş aparmalıdırlar. Bu xoşagəlməz hallara qarşı Azərbaycanda çox ciddi mübarizə aparılır. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim. Bütün dövlət məmurlarını xəbərdar etmişdim və hətta demişdim ki, əgər hansısa dövlət məmuru öz işində düzəlişlər edə bilmirsə, yaxud da ki, istəmirsə, qoy özü könüllü şəkildə dövlət işindən istefa versin.

Amma əfsuslar ki, mənim sözlərim bəziləri üçün dərs olmadı və bunun nəticəsində indi Dövlət Təhlükəsizliyi Xidməti bir neçə əməliyyat keçirərək rüşvətxorları, yüksək vəzifə sahiblərini ifşa etdi və onlar artıq cinayət məsuliyyətinə cəlb edilmişlər. Ağstafa, Biləsuvar, Yevlax, Neftçala rayonlarının icra başçıları həbs edilmişdir, ictimaiyyətə bu məsələ ilə bağlı ətraflı məlumat verilmişdir və bundan sonra da ətraflı məlumat veriləcəkdir.

Eyni zamanda, bu yaxınlarda Binəqədi qəsəbə bələdiyyəsinin sədri saxta icazə sənədi satmaqda ittiham olunub və əşyayi-dəlillə saxlanılıb. İsmayıllı rayonunun şəhər üzrə icra nümayəndəsi yardımın mənimsənilməsi ilə məşğul olmuş, kasıb adamlara göndərilən yardımı özünə götürmüşdür. Həbs edilmiş icra başçılarının istintaqı gedir. Ancaq bu gün nümayiş etdirilən videokadrlar onu göstərir ki, rüşvətxorluq bu adamlar üçün əsas prinsip olmuşdur. Yəni, bütün aidiyyəti qurumlar bir qayda olaraq hər ay icra başçılarına və icra hakimiyyətinin digər nümayəndələrinə rüşvət verməli olmuşlar. Əfsuslar olsun ki, belə xoşagəlməz hallar digər rayonlarda da vardır. Bu haqda məlumat var və bir daha demək istəyirəm ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək. Heç kim qanundan üstün deyil və əgər kim fikirləşir ki, onun yaxınları, tanışları, qohumları, yüksək vəzifəli dostları ona kömək edəcəklər, səhv edir. Qanun qarşısında hamı bərabərdir, Azərbaycan cəmiyyətində korrupsiya və rüşvətxorluq olmamalıdır. Hər halda biz çalışmalıyıq ki, korrupsiya və rüşvətxorluq üçün meydanı həm inzibati yollarla, həm də institusional üsullarla daraldaq. Eyni zamanda, cəza tədbirləri də tətbiq olunur və tətbiq ediləcəkdir.

Ona görə bu dörd rayonda hansı ki, icra başçıları həbs olunub, orada işlər geniş təhlil edilməlidir. Artıq dünən mənə məlumat verildi ki, Biləsuvar rayonunun həbs edilmiş icra başçısı bir neçə insanın torpaq sahəsini əllərindən alıb. Bu vətəndaşlar mənə açıq şəkildə müraciət etmişlər və dərhal göstəriş verildi ki, bu məsələ araşdırılsın. Əgər bu siqnal özünü təsdiqləsə, bu torpaqlar həmin vətəndaşlara qaytarılmalıdır. Ona görə prokurorluq orqanları bu işlərdə fəal olmalıdırlar. Bu gün bu ağır dövrdə verilən ərzağı oğurlamaq, fəhlələrə nəzərdə tutulmuş maaşı öz cibinə qoyaraq mənimsəmək həm cinayətdir, həm böyük vicdansızlıqdır. Bu vəsaiti ayırırıq ki, bu gün özünə iş tapa bilməyən insan heç olmasa minimum əməkhaqqı səviyyəsində işlə təmin edilsin. Bunlar ictimai işlərdir və biz bu yolla insanları işlə təmin edirik. Əgər birinci mərhələdə təqribən 30 min iş yeri yaradılmışdırsa, hazırda mən göstəriş vermişəm ki, onların sayı 90 minə çatdırılsın. Ancaq birinci mərhələdə bu vəsaitin paylanılması icra başçıları tərəfindən həyata keçirilirdi. Burada mövcud olan nəzarətsizlik və korrupsiya halları bir çox insanları dövlət tərəfindən verilən bu yardımdan faktiki olaraq məhrum etmişdir. Bu, vicdansızlıqdır, buna başqa ad vermək olmaz. Artıq bu gün biz nəzarəti gücləndirmişik. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə də tapşırıq verildi ki, onlar bu işlərə də nəzarəti gücləndirsinlər. Ancaq buna baxmayaraq, həbs edilmiş icra başçılarının, icra nümayəndəsinin iş otaqlarından, onların ciblərindən yenə də həmin o kasıb insanlara çatacaq kartlar çıxır. Ona görə bu və digər hallara qarşı mübarizə çox ciddi olmalıdır.

Pandemiya ilə əlaqədar bu gün Azərbaycan dövləti bütün resursları səfərbər edib, ilk növbədə, vətəndaşları, onlara həyatını, sağlamlığını qorumaq üçün əlindən gələni edir. Operativ Qərargah, bütün aidiyyəti qurumlar gecə-gündüz işləyirlər. Hər gün bizim birinci və günün axırında sonuncu əsas işimiz bu məsələ ilə məşğul olmaqdır. Nə qədər adam xəstələndi, nə qədər adam sağaldı, neçə nəfər xəstəxanalara yerləşdirildi, onların vəziyyəti necədir, ağır vəziyyətdə olan vətəndaşların durumu, onların sağalma şansları necədir - biz gecə-gündüz bununla məşğul oluruq. Dövlət, ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu, ayrı-ayrı sahibkarlar, ayrı-ayrı imkanlı adamlar öz təşəbbüsləri ilə gedib kasıb insanlara əl tuturlar. Bu yardımı mənimsəməyə nə ad vermək olar?! Bu yaxınlarda Heydər Əliyev Fondu tərəfindən göndərilmiş ərzaq paylarını da aparıb öz qohumlarının evlərində saxlayırlar ki, sonra onları satsınlar. Biz buna gözmü yumacağıq? Belə adamlar ən ciddi cəzaya layiqdirlər.

Ardı Səh. 3

# “Prokurorluq orqanlarında daha genişmiqyaslı islahatlara ehtiyac var”

## *Azərbaycan Prezidenti İlham Əliyev Baş prokuror Kamran Əliyevi videoformatda qəbul edib*

Əvvəli-Səh-2

İndi dünya liderlərinin bir çoxu qeyd edir ki, pandemiya müharibədir. Bəli, mən bu tezislə razıyam. Əgər indiki şəraitdə bunlar özlərini belə aparırlarsa, bundan daha ağır vəziyyət yaranarsa, onda bunlar nə edəcəklər? Bunun bir adı var - vicdansızlıq və xəyanət. Ona görə bundan sonra bu ünsürlərə qarşı mübarizə daha ciddi aparılmalıdır.

Biz dövlət sektorunda işləyən 900 min insanın əməkhaqqını tam ödəyirik. 600 min özəl sektor nümayəndəsinin, o cümlədən mikrosahibkarın, - hansı ki, onların çalışdıqları sahələr pandemiyaya görə daha çox zərər çəkib, - əməkhaqqının əhəmiyyətli hissəsini ödəyirik. Aztəminatlı təbəqəyə aid olan 600 min insanın, o cümlədən işsizlərin və qeyri-formal məşğul olanların vəsaitini ödəyirik. Biz hər bir vətəndaşa kömək etmək istəyirik, hər bir vətəndaşa! İcra başçılarının, digər mərkəzi və yerli icra orqanlarının rəhbərlərinin vəzifəsi budur. Hər bir icra başçısı vəzifəyə təyin olunanda ona mənim əsas sözlərim odur ki, get, vətəndaşlara xidmət et, get, vətəndaşlarla bir yerdə ol, təmiz işlə, rüşvət alma, vətəndaşları incitmə, kömək göstər, eyni zamanda, sahibkarlara kömək göstər, onların malını əlindən alma, onların fəaliyyətindən özünə pay istəmə. Hər birinə bu sözləri deyirəm. Bu məsələ ilə bağlı bizim mövqeyimiz birmənalıdır. Korrupsiyaya və korrupsionerlərə qarşı amansız mübarizə aparılacaq. Onu da bildirməliyəm ki, bu hallar təkcə yerli icra orqanlarında müşahidə edilmir, mərkəzi icra orqanlarında da belə hallar, belə siqnallar var və bu siqnallar araşdırılır. Verilən məlumata görə, bəzi mərkəzi icra orqanlarında, bəzi nazirliklərdə, - hələ bu siqnallar araşdırılır, - vəzifəyə təyin olunmaq üçün insanlardan bəzi hallarda rüşvət tələb edilir. Bu, cinayətdir, bu, bizim cəmiyyətimizin əsaslarını sarsıdan addımlardır, çirkin addımlardır. Pul verib vəzifəyə gələn adam ilk növbədə neyləyəcək? Çalışacaq ki, o pulun əvəzini çıxsın. Bunu haradan çıxaracaq? Ya haradansa dövlət malını oğurlayacaq, ya da ki, əgər imkanı olacaqsa, insanlardan pul tələb edəcək.

Biz bunu dəfələrlə görmüşük. Sadaladığım bu rayonlarda səhiyyə, təhsil, mədəniyyət sahəsində kütləvi şəkildə vətəndaşlardan, valideynlərdən, hər məktəb direktorundan pul yığılır. Rayon mərkəzi xəstəxanasının baş həkimindən icra hakimiyyətinə pul verilir. O da öz növbəsində bütün şöbələrdən hər ay haqq yığır. Bütün bələdiyyələr icra hakimiyyətinə aylıq pul verir. Biz bu hallara qarşı amansız mübarizə aparacağıq. Haqq da, xalq da bizim tərəfimizdədir. Bütün bu ifşaedici görüntülər hər bir Azərbaycan vətəndaşında haqlı olaraq ikrah hissi doğurur. Eyni zamanda, mənə ünvanlanan yüzlərlə, minlərlə məktubda bizim bu addımlarımıza böyük dəstək göstərilir. Ona görə prokurorluq orqanları bu işdə ön sıralarda olmalıdır və qanunun aliliyini təmin etməlidir.

Ümid edirəm, sizin iş təcrübəniz və peşəkarlığınız imkan verəcək ki, mənim bu göstərişlərimin icrası təmin edilsin. Prokurorluq orqanlarının işçiləri bundan sonra da Vətənə ləyaqətlə xidmət etsinlər və bütün hüquq mühafizə orqanları elə çalışsınlar ki, həm vətəndaşlar, ictimaiyyət onların işindən razı olsun, eyni zamanda, dövlətin maraqları və qanunun aliliyi təmin edilsin.

Mən bu gün Sizi təyin edirəm və ümid edirəm ki, Siz bu yüksək etimadı doğruldacaqsınız.

x x x

Baş prokuror Kamran Əliyev:

-Çox sağ olun, möhtərəm cənab Prezident. İcazə verin, əvvəlcə Sizə mənə böyük etimad göstərdiyinizə, məni bu mühüm dövlət postuna layiq gördüyünüzə, bu vəzifəyə təyin etdiyinizə görə dərin təşəkkürümü bildirim.

Prokurorluq orqanları doğrudan da dövlət quruculuğunda, dövlət idarəçiliyində çox mühüm bir orqandır. Prokurorluq orqanlarının dövlət idarəçiliyində yerini ulu öndər Heydər Əliyev müəyyən etmişdir. Ulu öndər Heydər Əliyev qeyd etmişdir ki, prokurorluq dövlətin əsas sütunlarından biridir. Bu, doğrudan da belədir. Prokurorluq orqanları ulu öndər Heydər Əliyevin diqqət və qayğısı ilə daim əhatə olunmuşdur. Onun rəhbərliyi ilə müstəqil Azərbaycanın prokurorluğu mühüm inkişaf yolu keçmişdir. Məhz onun müvafiq Sərəncamı ilə prokurorluq orqanlarının - müstəqil Azərbaycan Prokurorluğunun peşə bayramını - 1 oktyabr gününü biz hər il qeyd edirik.

Möhtərəm cənab Prezident, Siz 2003-cü ildə Azərbaycan xalqı tərəfindən Prezident seçildikdən sonra prokurorluq orqanları yenə də daim diqqət və qayğınızla əhatə edilmişdir. Prokurorluq orqanlarında bu gün doğrudan da kifayət qədər çox peşəkar kadrlar, Vətənə, dövlətə xidmət edən, dövlətə sədaqətli kadrlar var. Bu, Sizin rəhbərliyinizlə prokurorluq orqanlarında həyata keçirilmiş mühüm islahatların nəticəsidir.

Sizin rəhbərliyinizlə digər sahələrdə həyata keçirilən islahatların prokurorluq orqanlarında da aparılması çox zəruridir. Siz ötən il məhkəmə-hüquq islahatları barədə müvafiq Fərman imzalamısınız və bu istiqamətdə işlər davam edir. Bu baxımdan hesab edirəm ki, məhkəmə-hüquq sisteminin tərkib hissəsi olan prokurorluqda islahatların aparılması xüsusi önəm kəsb edir.

Siz tamamilə düzgün qeyd etdiniz ki, hazırda - postneft dövründə həyata keçirilən islahatlar birinci növbədə əhalinin rifahının, hər bir Azərbaycan vətəndaşının gündəlik həyatının yaxşılaşmasına xidmət edir.

Prokurorluq orqanlarının fəaliyyət dairəsi doğrudan da genişdir. Prokurorluğun əsas fəaliyyət istiqamətlərindən biri də təbii ki, ağır cinayətlərə, dövlətə, dövlətçiliyə qarşı yönələn bütün daxili və xarici təhdidlərə qarşı amansız mübarizə aparmaqdır. Bu sahədə təbii ki, prokurorluq orqanları digər dövlət qurumları ilə - həm Dövlət Təhlükəsizliyi Xidməti, həm Daxili İşlər Nazirliyi və digər müvafiq dövlət qurumları ilə birbaşa sıx əlaqədə işləməlidirlər.

Möhtərəm cənab Prezident, Siz korrupsiyaya qarşı mübarizə ilə bağlı xüsusi olaraq qeyd etdiniz. Azərbaycan Prezidenti seçildikdən sonra korrupsiyaya qarşı mübarizə Sizin həyata keçirdiyiniz islahatların, siyasətin ən mühüm tərkib hissəsi olmuşdur. Məhz həmin dövrdən Azərbaycan Respublikası bu sahədə bütün beynəlxalq təşəbbüslərə, həm Avropa Şurasının, həm Birləşmiş Millətlər Təşkilatının bu sahədə bütün mövcud konvensiyalarına qoşulmuş və bu sahədə institusional tədbirlər həyata keçirilmiş, müvafiq qurumlar yaradılmışdır. Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi də bu sahədə ixtisaslaşmış cinayət təqibi orqanı kimi yaradılmışdır. Sizin 2013-cü ildə prokurorluğun peşə bayramı günü ərəfəsində Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin yeni tikilmiş binasının açılışında iştirak etməyiniz tam əminliklə deyirəm ki, prokurorluq orqanlarında xüsusi olaraq ruh yüksəkliyi yaratmışdır. Sizin həmin vaxt gənc prokurorluq əməkdaşları qarşısında çıxışınız hər bir prokurorluq əməkdaşının bu gün də xatirindədir və onlar bunu daim böyük fərəh, qürur hissi ilə qeyd edirlər.

Biz prokurorluq orqanlarında islahatları davam etdirməliyik. Kadr islahatları doğrudan da çox vacib məsələdir və biz bu sahədə fəaliyyətimizi davam etdirəcəyik. Əgər zərurət yaranarsa təbii ki, prokurorluğun, həmçinin struktur qurumlarının fəaliyyəti təhlil edilməlidir. Hesab edirəm ki, biz bu sahədə də mütərəqqi addımlar atmalıyıq.

Sizin tapşırığınız və göstərişinizlə prokurorluq orqanları beynəlxalq qurumlarla daim əməkdaşlıq etmişdir. Həm beynəlxalq qurumlar və eyni zamanda, digər ölkələrin prokurorluq və antikorrupsiya orqanları ilə mütəmadi əlaqələr saxlanılmışdır. Təbii ki, bu iş Sizin siyasi iradənizə uyğun həyata keçirilmişdir. Siz prokurorluq orqanlarının əməkdaşları qarşısında çıxışınız zamanı qeyd etdiyiniz kimi, biz fəaliyyətimizdə ən qabaqcıl təcrübəni yalnız öyrənməklə kifayətlənməməli, eyni zamanda, gündəlik fəaliyyətimizdə tətbiq etməliyik.

Cənab Prezident, Siz koronavirus pandemiyası ilə bağlı qeyd etdiniz ki, bu, bir müharibədir. Azərbaycan dövləti Sizin rəhbərliyinizlə, Mehriban xanımın gündəlik diqqət və qayğısı sayəsində digər qabaqcıl ölkələrlə müqayisədə demək olar ki, bu böyük problemi artıq arxada qoymaq üzrədir. Ümid edirik ki, bu istiqamətdə işlər belə də davam edəcəkdir.

Möhtərəm cənab Prezident, icazə verin, məni bu çox məsul dövlət vəzifəsinə layiq bildiyiniz üçün Sizə bir daha dərin təşəkkürümü bildirim. Sizi tam əmin etmək istəyirəm ki, prokurorluq orqanları bundan sonra da daim Heydər Əliyev prinsiplərinə, dövlətə, dövlətçiliyə, öz xalqına xidmət edəcəkdir. Bir daha təşəkkür edirəm.

Prezident İlham Əliyev: Sağ olun, sizə uğurlar arzulayıram.

Kamran Əliyev: Çox sağ olun.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Böyük Vətən müharibəsi iştirakçılarının “Böyük Vətən müharibəsində Qələbənin 75 illiyi (1945-2020)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Kamran Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru təyin edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, dövlət başçısının digər Sərəncamı ilə Kamran Əliyev Baş prokurorun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi vəzifəsindən azad edilib.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Kənd təsərrüfatı və ərzaq məhsulları bazarının fəaliyyətinin təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında” 2014-cü il 16 yanvar tarixli 221 nömrəli, “Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” 2015-ci il 15 aprel tarixli 1175 nömrəli, “Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında” 2015-ci il 19 avqust tarixli 1364 nömrəli, “Azərbaycan Respublikasında ipəkçiliyin inkişafına dövlət dəstəyi haqqında” 2016-cı il 15 sentyabr tarixli 2337 nömrəli, “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dövlət dəstəyi haqqında” 2016-cı il 22 sentyabr tarixli 2350 nömrəli, “Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında” 2016-cı il 5 oktyabr tarixli 2366 nömrəli və “Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında” 2018-ci il 5 mart tarixli 3747 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2017-ci il 13 iyul tarixli 3082 nömrəli və “Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 2017-ci il 10 avqust tarixli 3163 nömrəli sərəncamlarında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev “Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nda dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsi”ndə dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Televiziya və radio yayımı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2002-ci il 5 oktyabr tarixli 794 nömrəli və “Milli Televiziya və Radio Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə” 2002-ci il 5 oktyabr tarixli 795 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2010-cu il 22 iyun tarixli 1044-IIIQD nömrəli Qanununun tətbiq edilməsi haqqında” 2010-cu il 14 iyul tarixli 297 nömrəli, “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2011-ci il 15 noyabr tarixli 243-IVQD nömrəli Qanununun tətbiqi haqqında və “Notariat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 18 yanvar tarixli 261 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında” 2011-ci il 22 dekabr tarixli 552 nömrəli, “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1223-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 10 avqust tarixli 230 nömrəli və “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 15 noyabr tarixli 1334-VQD nömrəli Qanununun tətbiqi haqqında” 2018-ci il 20 noyabr tarixli 347 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

# Məhərrəm Əliyev və Elçin Quliyev hərbi hissə və bölmələrə səfər ediblər







***Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri general-polkovnik Məhərrəm Əliyev və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Ermənistanla dövlət sərhədinin mühafizə və müdafiəsini həyata keçirən "Qazax" əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinə səfər ediblər.***

Dövlət Sərhəd Xidmətindən SİA-ya verilən məlumata görə, səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırıqlarının icra vəziyyəti yoxlanılıb, sərhədçilərin xidməti və yaşayış şəraitləri nəzərdən keçirilib, sərhəd-döyüş məntəqələrində düşmən ilə təmas xəttində xidmət aparan hərbi qulluqçular ilə görüşülüb.

Dövlət sərhədində zəruri sərhəd mühafizə və müdafiə infrastrukturunun formalaşdırılması məqsədilə görülən işlərlə tanış olunub, bu məqsədlə aparılan tikintilərə baxış keçirilib, Qazax rayonunun İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun iştirakı ilə bu istiqamətdə həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin qısa müddət ərzində realizəsi məsələləri müzakirə olunub. "Qazax" əlahiddə sərhəd diviziyasının rəhbər heyəti ilə xidməti müşavirə keçirilmiş, hərbi hissə və bölmələrin döyüş hazırlığının möhkəmləndirilməsi, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi, sərhədçilərin döyüş ruhunun daha da yüksəldilməsi istiqamətində zəruri tapşırıqlar verilib.

## "Xalqın içinə çıxmağa üzü olmayan nazir gedib evində otursun"



"Xalqın içinə çıxmağa üzü olmayan nazir gedib evində otursun". SİA-nın məlumatına görə, bunu Milli Məclisin dünən keçirilən iclasında "Hesablama Palatasının illik hesabatı haqqında" məsələnin müzakirəsi zamanı Regional məsələlər komitəsininn sədri Siyavuş Novruzov deyib.

Siyavuş Novruzov bəzi nazirliklərin aparatlarında islahatların aparılmasını vacib hesab edib: "Hesablama Palatası bu məsələyə diqqət yetirməlidir. Dövlət qurumlarında aparat rəhbərlərinin təyin olunması məsələsi də əhəmiyyətlidir. Mənzil istismar sahəsindın tutmuş icra hakimiyyətinə qədər hamı aparat rəhbəri təyin edir. Bəs onda müavin funksiyası harda qalır? Bütün nazirliklərdə mətbuat xidmətləri təyin olunur. Mətbuat xidməti ancaq zəruri qurumlarda olmalıdır. Karantin dövründə də gördük ki, nazir qalıb kənarda, onun mətbuat xidməti xalqa əlləzinə oxuyur. Əgər xalqın qarşısına çıxmağa üzü yoxdursa və ya qabiliyyəti çatmırsa, getsin otursun evdə. Nazirin vəzifəsi ictimaiyyət qarşısına çıxmaq və ictimaiyyəti birbaşa məlumatlandırmaqdır". Siyavuş Novruzov vurğulayıb ki, Hesablama Palatasının hesabatında çox düzgün olaraq kimisə məsuliyyətə cəlb etməkdən daha çox vəsaitlərin büdcəyə daxil olmasının təmin edilməli olduğu göstərilib.

## Rusiya mətbuatı: "Azərbaycanın öhdəlikləri yerinə yetirməyə başladı"



Azərbaycan OPEC + öhdəlikləri çərçivəsində neft hasilatını azaltmağa başlayır. SİA xəbər verir ki, bu barədə Rusiyaya məxsus RenTv saytı məlumat yayıb. Məlumata görə "İnterfaks-Azərbaycan" ölkənin Energetika Nazirliyinin mətbuat xidmətinin rəhbəri Zamin Əliyevə istinadən xəbər verib. Qeyd olunur ki, Azərbaycan razılaşma üzrə öhdəliklərə mayın 1-dən başlayır. "Neft hasilatının azaldılması üçün kvotalar ARDNŞ-nin neft və qaz hasil edən idarələri ilə hasilatın pay bölgüsü sazişləri və oxşar neft müqavilələri çərçivəsində fəaliyyət göstərən neft istehsalçıları arasında mütənasib şəkildə bölüşdürülür", deyə mətbuat xidmətinin rəhbərinin sözləri stat olaraq bildirilir.

Xatırladılır ki, OPEC + ölkələrinin əksəriyyəti neft hasilatını azaltmaq barədə razılığa gəlmişlər. Daha əvvəl Qazaxıstanın ölkənin orta və böyük yataqlarında neft hasilatını məhdudlaşdırmaq niyyətində olduğu da bildirilmişdi.

# Dövlət Təhlükəsizliyi Xidməti Biləsuvarda keçirdiyi əməliyyat-istintaq tədbirləri barədə məlumat yayıb

Azərbaycan Respublikası ərazisində xüsusi karantin rejiminin tətbiq edildiyi, dövlət strukturlarının fəaliyyətinin əhalinin sağlamlığının qorunması istiqamətində səfərbər olunduğu bir vaxtda bəzi vəzifəli şəxslərin mövcud vəziyyətdən şəxsi maraqları naminə istifadə edərək vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının fəaliyyətinə kölgə salan hüquqazidd əməllərə yol verməl期ərinə dair məlumatlar əsasında araşdırma tədbirləri həyata keçirilməkdədir.

Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, toplanmış materiallar üzrə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevin birinci müavini Xanlar Məmmədov vasitəsilə xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar maddi yardıma ehtiyacı olan şəxslərə sosial yardım üçün ayrılan vəsaitin bir qismini hissə-hissə mənimsəməsi, habelə icra hakimiyyətinin sərəncamında olan digər vəsaitlərdən sosial yardım adı altında ayıraraq hissəsinin ona verilməsini tapşırmasına dair əsaslı şübhələr müəyyən olunmuşdur.

Bundan başqa, Mahir Quliyevin köməkçisi Pöhran Şahbazov və tabeçiliyində olan başqa vəzifəli şəxslər vasitəsilə yerli icra hakimiyyəti və digər dövlət orqanlarının vəzifəli şəxslərindən, eləcə də rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlardan müxtəlif adlar altında özünün pul vəsaitləri tələb edərək almasına dair əsaslı şübhələr müəyyən edilmişdir.

Həmçinin dövlət qayğısı ilə əhatə olunmuş işsiz və aztəminatlı vətəndaşların ictimai işlərə cəlb edilərək aylıq qazanc əldə edə bilmələri üçün əməkhaqqı kartlarına köçürülən məbləğlərin Mahir Quliyev tərəfindən ələ keçirilməsinə dair məlumatlar əldə edilmişdir.



Eyni zamanda, Mahir Quliyev tərəfindən təmir-tikinti, abadlıq işlərinə ayrılan dövlət vəsaitlərinin müəyyən hissəsinin nağdlaşdırılaraq mənimsənildiyinə, vətəndaşlardan müxtəlif təyinatlı tikintilərin aparılması üçün zəruri olan sənədləşmə işləri və digər əsaslarla ümumilikdə təkrarən rüşvət tələb edilərək alınmasına əsaslı şübhələr müəyyən edilmişdir.

Dövlət Təhlükəsizliyi Xidmətinin 2020-ci il aprelin 29-da həyata keçirdiyi əməliyyat-istintaq tədbirləri nəticəsində, Mahir Quliyevin xidməti otağında növbəti dəfə rüşvət almasından sonra məhkəmənin qərarı əsasında keçirilmiş baxış zamanı həmin pul vəsaitləri, aparılan araşdırmalarla bağlı iş üzrə əhəmiyyət kəsb edən müxtəlif sənədlər və digər maddi sübutlar aşkar edilərək götürülmüşdür.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Mahir Quliyev vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, təkrar rüşvət alma, mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə məsuliyyətə cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir. Hazırda araşdırmalar davam etdirilir.

# Ölkə ərazisində xüsusi karantin rejimi mayın 31-dək uzadıldı

***Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək xüsusi karantin rejiminin müddəti 31 may 2020-ci il saat 00:00-dək uzadılıb.***



Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, eyni zamanda, əhali arasında virusa yoluxma sürəti, xəstələrin sağalma dinamikası nəzərə alınaraq, tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılmasına dair qərar verilib.

Məhdudiyyətlərin yumşaldılması mövcud sanitar-epidemioloji vəziyyət, xəstə sayı və yoluxma sürəti əsas götürülərək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri, Abşeron rayonu və digər regionlar üzrə mərhələ ilə həyata keçirilir.

Bununla əlaqədar Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə 4 may 2020-ci il saat 00:00-dan etibarən:

* dövlət qurumlarının işçilərinin fəaliyyəti müəyyən olunmuş sayda bərpa olunur (fəaliyyəti bərpa olunan dövlət qurumlarının işçilərinin say həddi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə müəyyən ediləcəkdir);

* “DOST” mərkəzləri xidmət göstərdikləri ərazilər üzrə ünvanlı dövlət sosial yardımı və sosial sahə üzrə bank kartlarının təqdim olunması istiqamətlərində fəaliyyətini bərpa edir;

* xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti bərpa edilir;

* bütün sahələr üzrə fərdi ticarət obyektlərinin fəaliyyəti bərpa olunur;

* bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət bərpa olunur.

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu istisna olmaqla respublikanın digər rayon və şəhərlərində və Naxçıvan Muxtar Respublikasında 4 may 2020-ci il saat 00:00-dan etibarən:

* yaşayış yerini SMS icazə ilə, “icaze.e-gov.az” portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunur;

* “DOST” mərkəzləri xidmət göstərdikləri ərazilər üzrə ünvanlı dövlət sosial yardımı və sosial sahə üzrə bank kartlarının təqdim olunması istiqamətlərində fəaliyyətini bərpa edir;

* dövlət qurumlarının işçilərinin tam sayda fəaliyyəti bərpa olunur;

* restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlər bərpa olunur (ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə istisna olmaqla);

* bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət götürülür;

* qeyd olunan ərazilərdə rayonlar və şəhərlərarası gediş-gəliş bərpa olunur (ictimai nəqliyyatla sərnişindaşıma xidməti istisna olmaqla);

* xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti bərpa edilir;

* bütün sahələr üzrə fərdi ticarət obyektlərinin fəaliyyəti bərpa olunur;

* bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət bərpa olunur;

* üsusi karantin rejimində respublika üzrə ictimai yerlərdə, bulvarlarda və parklarda, eyni zamanda, ictimai iaşə obyektlərində bir yerdə insanların 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağandır.

Respublika üzrə bütün təhsil müəssisələrində tədris, təlim tərbiyə prosesinin dayandırılması 31 may 2020-ci il tarixinədək uzadılır.

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda məhdudiyyətlər aradan qaldırılan sahələrdə işləyən şəxslər barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə “icaze.e-gov.az” portalına daxil edildikdən sonra onların hərəkətinə yol verilir.

Pandemiya dövründə ölkə ərazisində müvafiq strukturların, habelə ticarət və xidmət sahələrinin fəaliyyəti Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara uyğun həyata keçirilməlidir.

Bir daha hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, yalnız zəruri hallarda evdən çıxmağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa, dövlət tərəfindən həyata keçirilən tədbirlərə yaxından dəstək göstərməyə, Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etməyə çağırırıq.

Növbəti mərhələdə sanitar-epidemioloji vəziyyətdən asılı olaraq mövcud məhdudiyyətlərdən daha bir qisminin aradan qaldırılması ilə bağlı qərar veriləcəkdir.

Qeyd edək ki, COVID-19 virusu ilə bağlı ölkədəki sanitar-epidemioloji vəziyyət mütəmadi təhlil edilərək müvafiq qaydalar tətbiq olunur. Bu səbəbdən COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə bağlı ölkədəki vəziyyət zərurət yaradarsa, xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsi mümkündür.

Komitə sədri bir daha vurğulayıb ki, dövlətin atdığı addımlar, o cümlədən özünütəcrid, “Evdə qal” tədbirləri yalnız və yalnız vətəndaşın sağlamlığının qorunması üçündür. O bildirib ki, insanlar SMS vasitəsilə yalnız zəruri hallarda evdən çıxmalıdırlar. Evdən çıxanda da maska və əlcəklərdən istifadə olunmalı, məsafə gözlənilməlidir. Kütləvi toplantılara yol vermək hazırkı vəziyyətdə yolverilməzdir və cəmiyyət üçün təhlükə mənbəyinə çevrilə bilər. “Əgər biz qaydalara əməl etsək, karantin rejiminin mərhələlərlə yumşaldılması mümkündür. Əks təqdirdə qaydalar yenidən sərtləşdirilə bilər. Gəlin, bu şəraitdə bizə nə tövsiyə edilirsə, hamısına əməl edək, qaydalara laqeyd yanaşmayaq. Təhlükə hələ sovuşmayıb və bu təhlükənin azalması da, artması da bizim öz əlimizdədir. Əgər qaydalara əməl edilməsə, yoluxma və ölüm sayı arta bilər. Hazırkı vəziyyətdə hər bir vətəndaş “mən” yox, “biz” deməyə borcludur. Bu, vətəndaş məsuliyyəti deməkdir.

“Mən bu çətin günlərdə əsl qəhrəmanlıq göstərən Azərbaycan həkimlərinə fədakar xidmətlərinə görə təşəkkür edirəm. Həyatını təhlükəyə atan hüquq mühafizə orqanlarının nümayəndələrinə minnətdarlığımı bildirirəm. Biz birlikdə güclüyük!”, - deyə Q.Paşayeva bildirib.

## “Koronavirusla bağlı təhlükənin azalması da, artması da vətəndaşın davranışından asılıdır”

Azərbaycan Prezidenti İlham Əliyev “Yeni klinika”nın açılışında xalqımıza səslənərək “Biz birlikdə güclüyük” çağırışını edib. Dövlətimizin başçısı qeyd edib ki, koronavirus pandemiyası ölkənin iqtisadiyyatına ciddi ziyan vurur, amma bizim üçün ən ümdə məsələ insanların sağlamlığıdır. Gördüyümüz kimi, Prezident vətəndaşların sağlamlığına böyük önəm verir və bununla bağlı qətiyyətli addımlar atır. Bunun qarşılığında hər bir vətəndaşımız öz məsuliyyətini dərk etməli, özünün, ailə üzvlərinin, yaxınlarının və ən əsası, cəmiyyətin sağlamlığı üçün özünütəcrid, sanitariya qaydalarına əməl etməlidir. Dövlətin və xalqın həmrəyliyi bizə koronavirusla mübarizə istiqamətində digər ölkələrə nümunə olmağa imkan verdi. Həmrəyliyimiz, birliyimiz olmasaydı müsbət nəticələr əldə edə bilməzdik.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva söyləyib.

Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan virusun geniş yayıldığı ölkələrdən, hətta inkişaf etmiş Avropa ölkələrindən belə fərqləndi. Həmin ölkələrdə iqtisadiyyat və səhiyyə böhranının yaşandığını diqqətə çatdıran deputat bildirib ki, statistikaya görə, ölkəmizdə yoluxma, ölüm sayı dünyanın əksər ölkələri ilə müqayisədə çox azdır. O, sağalma faizinin də yüksək olmasının çox müsbət hal olduğunu vurğulayıb.

Q.Paşayeva deyib ki, dövlətimiz məhz bu müsbət keyfiyyətləri nəzərə alaraq karantin rejiminin qaydalarının yumşaldılması ilə bağlı qərar verdi. Məqsəd təbii ki, insanların işləyə bilməsi və iqtisadiyyatın dirçəldilməsidir. Əgər hər bir Azərbaycan vətəndaşı üzərinə düşən məsuliyyəti başa düşərək öz vəzifəsini yerinə yetirsə, hökumət addım-addım və uğurla yumşaldılma prosesinə davam edə bilər. Bu səbəbdən indiki vəziyyətdə hər şey insanlara bağlıdır. Yeni məhdudiyyətlər götürülsə belə, insanlar profilaktik tədbirlərə, sanitar normalara uyğun davranmasa yoluxma halları çoxala bilər. Şübhəsiz ki, xəstəliyin dərmanı tapılmayana qədər ikinci, hətta üçüncü dalğanın ola biləcəyi istisna deyil.

“Tibb təhsili almış və uzun müddət Milli Məclisin Səhiyyə komitəsində çalışmış bir insan kimi deyə bilərəm ki, pandemiyanın hansı ayda və yaxud nə vaxt bitəcəyini dünyanın ən güclü tibb mütəxəssisləri və Ümumdünya Səhiyyə Təşkilatı belə cavab verə bilməkdə acizdir. Şükürlər olsun ki, bizdə vəziyyət acınacaqlı deyil. Amma buna baxmayaraq, son dərəcə diqqətli olmalı, gigiyena qaydalarına daha ciddi riayət etməliyik. Maarifləndirici materialların sayı çoxaldılmalı, yeni videoçarxlar hazırlanmalıdır. Bir sözlə, özünütəcrid, “Evdə qal!” kampaniyası davam etdirilməlidir. Riskli yaş qrupuna aid vətəndaşlar özlərini qorumalıdır.

## “Azərbaycanda hər kəs bilməlidir ki, pandemiya hələ bitməyib”

Azərbaycanda hər kəs bilməlidir ki, pandemiya hələ bitməyib. SİA-nın məlumatına görə, bunu dünən keçirdiyi mətbuat konfransında Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib.



Onun sözlərinə görə, insanlar yenə də sanitar-gigiyenik qaydalara ciddi əməl etməlidirlər ki, yoluxma sayı çox olmasın. ÜST rəsmisi bildirib ki, ciddi karantin rejimi iqtisadi fəaliyyətə də çox mənfi təsir edir: “ÜST-ün hazırda əsas tövsiyələri sağlamlığın qorunması ilə bağlıdır. Virusdan qorunmaq üçün insanlar arasında məsafənin qorunması, sıxlıq olan yerlərdən uzaq olmaq vacibdir”. H.Harmancı əlavə edib ki, Azərbaycan pandemiyaya qarşı qlobal mübarizəyə dəstək göstərən ölkələrdəndir.

# "Qırğızıstan Dağlıq Qarabağı Azərbaycan Respublikasının ayrılmaz hissəsi kimi tanıyaraq BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrini dəstəkləyir"

Qırğızıstan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri və normaları əsasında dinc yolla və diplomatik metodlarla nizamlanmasının tərəfdarıdır. Qırğızıstan Dağlıq Qarabağı Azərbaycan Respublikasının ayrılmaz hissəsi kimi tanıyaraq BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 4 qətnaməsini dəstəkləyir. Qırğız Respublikasının Azərbaycan Respublikasındakı müvəqqəti işlər vəkili Bakıt Yusupov bu fikirləri AZƏRTAC-a müsahibəsində söyləyib.

Müsahibəni oxuculara təqdim edirik.

***- 2019-cu ildə Azərbaycan və Qırğızıstan arasında həm ali, həm də yüksək səviyyələrdə görüşlərin və danışıqların sayı artıb. Bu, ölkələrimiz arasında ikitərəfli əməkdaşlığa marağın artmasına dəlalət edirmi?***

- Azərbaycan Respublikası ilə Qırğız Respublikasının ənənəvi əməkdaşlığı hər iki tərəfin qarşılıqlı sərfəli əməkdaşlığı inkişaf etdirmək və genişləndirmək istəyinə əsaslanır. Buraya onu da əlavə etmək lazımdır ki, son illərdə Qırğızıstanın xarici siyasəti dünyada, o cümlədən Cənubi Qafqaz regionunda öz maraqlarını fəal irəlilətmək xarakteri kəsb edir. Bu istiqamətdə Qırğızıstan-Azərbaycan əlaqələrinin möhkəmləndirilməsində ciddi irəliləyiş nəzərə çarpır. Qeyd etmək lazımdır ki, Qırğızıstanın və Azərbaycanın dövlət başçılarının şəxsi görüşləri və telefon söhbətləri ikitərəfli qarşılıqlı əlaqələrin inkişafına təkan verib.

Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun 2019-cu il oktyabrın 14-16-da Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Sammitində iştirakı çərçivəsində onun Azərbaycana işçi səfəri mühüm hadisə oldu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Sooronbay Jeenbekovun görüşündə hər iki ölkənin dövlət başçıları sıx və konstruktiv siyasi dialoqu davam etdirməyə, etimada və qarşılıqlı dəstəyə əsaslanana əməkdaşlıq münasibətlərini inkişaf etdirməyə hazır olduqlarını təsdiq etdilər.

Parlamentlərarası səviyyədə əməkdaşlığın inkişafı Qırğızıstan-Azərbaycan qarşılıqlı əlaqələrində mühüm rol oynayır. İkitərəfli danışıqlar çərçivəsində, həmçinin müxtəlif parlamentlərarası məkanlarda keçirilən görüşlərdə parlamentlərarası və dövlətlərarası əməkdaşlığın ən aktual məsələləri müzakirə edilir.

Məsələn, Qırğız Respublikası Joqorku Keneşinin sədri Dastan Cumabekov 2019-cu il dekabrın 17-də Bakıda TürkPA-nın 9-cu Plenar iclasında iştirakı çərçivəsində Azərbaycan rəhbərliyi ilə görüşüb.

Qeyd etmək lazımdır ki, yüksək səviyyədə əlaqələrdən başqa son dövrdə Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovla Qırğız Respublikasının xarici işlər naziri Çingiz Aydarbekovun əlaqələri də kifayət qədər intensiv xarakter daşıyır, onların söhbətlərində ikitərəfli münasibətlərin inkişafının hədəflərinə nail olmaq yolları müzakirə edilir.

Sevindirici haldır ki, 2020-ci ilin əvvəlindən tərəflərin qarşılıqlı əlaqələrində artım dinamikası müşahidə olunur.

***-Azərbaycan və Qırğızıstan prezidentləri arasında danışıqların nəticələrini şərh edə bilərdinizmi? Əldə edilmiş razılaşmalar necə reallaşır?***

-Tərəflər yüksək səviyyədə siyasi əlaqələri dəstəkləmək, həmçinin müxtəlif səviyyələrdə qarşılıqlı səfərlər təşkil etmək barədə razılığa gəliblər.

Keçən il oktyabr ayında Bakıda Qırğız Respublikasının və Azərbaycan Respublikasının dövlət başçılarının görüşündə Qırğızıstan və Azərbaycan arasında birbaşa nəqliyyat əlaqələrinin inkişafı məsələsi də müzakirə edilmişdi. Bu, dövlətlər arasında iqtisadi əməkdaşlığın inkişafının əsas amillərindən biridir. Bununla əlaqədar, Azərbaycan



tərəfi Qırğızıstandan Avropa İttifaqı ölkələrinə yüklərin çatdırılması üçün "Bakı-Tbilisi-Qars" marşrutunun potensialından və üstünlüklərindən istifadə etməyi təklif etdi. Bundan başqa, dövlət başçıları investisiya siyasəti sahəsində ticari-iqtisadi əməkdaşlığın inkişafının əhəmiyyətini vurğuladılar.

Qırğızıstan-Azərbaycan biznes-forumunun keçirilməsi və mümkün investisiya layihələrinin reallaşdırılması üçün Azərbaycan investorlarının Qırğızıstan Respublikasına səfərinin təşkili haqqında razılaşmanı ayrıca qeyd etmək lazımdır. Bu barədə bu il fevralın 6-da Qırğızıstan Respublikasının xarici işlər naziri Ç.Aydarbekovun Bakıda Türk Şurası ölkələrinin Xarici İşlər Nazirləri Şurasının növbədənkənar yığıncağı çərçivəsində Prezident İlham Əliyev və Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarovla ikitərəfli görüşlərində razılaşma əldə edilib. Bununla əlaqədar, birgə biznes-forumun təşkilatı məsələsi ikitərəfli münasibətlərin gündəliyindədir.

Ən əhəmiyyətli istiqamətlərdən biri də mədəni-humanitar əməkdaşlıq məsələsidir. Ölkələrimizin təhsil, yaradıcılıq və idman sahələrinin nümayəndələri daim sıx əlaqə saxlayırlar. Qırğızıstanda elan edilmiş Regionların inkişafı, ölkənin rəqəmsallaşması və uşaqlara dəstək ili çərçivəsində bu istiqamətdə fəal iş aparılır. İki ölkənin bəzi şəhərləri arasında qardaşlaşma münasibətləri yaradılması planlaşdırılır.

Onu da qeyd etmək lazımdır ki, 2019-cu il dekabrın 24-də Bişkekdə Heydər Əliyev adına ümumtəhsil məktəbinin təməli qoyulub, 2020-ci il yanvarın 10-da isə Qırğızıstan Prezidentinin iştirakı ilə Qırğızıstan-Azərbaycan Dostluq Parkının tikintisinin təməlqoyma mərasimi keçirilib. Bu obyektlərin tikintisi iki ölkənin dostluğu və qardaşlığının rəmzləri olacaq. Prezident İlham Əliyevin Qırğızıstan Respublikasına planlaşdırılan səfəri zamanı həmin obyektlərə baş çəkməsi üçün Qırğızıstan tərəfi bu səfərə qədər onların tikintisini başa çatdırmağa çalışır.

-Xahiş edirəm, beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əməkdaşlıq haqqında bir qədər məlumat verin.

-İkitərəfli münasibətlərin inkişafının ümumi dinamikası beynəlxalq məkanlarda, o cümlədən BMT, MDB, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq və regional təşkilatlar çərçivəsində iki ölkənin qarşılıqlı dəstəyi hesabına daha da möhkəmlənir. Bu halda beynəlxalq gündəliyin aktual məsələləri barədə Qırğızıstanın və Azərbaycanın mövqeləri uyğun gəlir.

Bütövlükdə, beynəlxalq təşkilatların fəaliyyəti çərçivəsində Qırğızıstanın və Azərbaycanın əməkdaşlığı durmadan inkişaf edir, iqtisadi, mədəni-humanitar və hüquqmühafizə sahələrində qarşılıqlı əlaqələr dərinləşir. Yeni təhdidlərə və təhlükələrə qarşı mübarizə də əməkdaşlığın mühüm istiqamətidir.

***-Bu kontekstdə, Siz yaxın vaxtlarda Azərbaycanın işğal edilmiş ərazilərində qondarma "prezident və parlament seçkiləri" keçirilməsini şərh edə bilərdinizmi?***

-Azərbaycanın Dağlıq Qarabağ regionunda qondarma "seçkilər" keçirilməsi barədə bir sıra beynəlxalq təşkilatlar, o cümlədən Qırğızıstanın da üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, TürkPA bəyanatlarla çıxış ediblər.

Məlum olduğu kimi,

Qırğızıstan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri və normaları əsasında dinc yolla və diplomatik metodlarla nizamlanmasının tərəfdarıdır. Qırğızıstan Dağlıq Qarabağı Azərbaycan Respublikasının ayrılmaz hissəsi kimi tanıyaraq BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 4 qətnaməsini dəstəkləyir.

Qırğızıstan diplomatik münasibətlər yaratdığı hər bir dövlətin ərazi bütövlüyü, suverenliyi və müstəqilliyi prinsiplərinə tərəfdardır.

***-Koronavirus pandemiyası Azərbaycanla Qırğızıstanın ikitərəfli münasibətlərinin inkişaf tempinə təsir edibmi?***

-Dünyanın bütün ölkələrini və regionlarını bürümüş koronavirus pandemiyası şəraitində dünya birliyi pandemiyanın bütün mümkün nəticələrini və ona qarşı mübarizə tədbirlərini müzakirə edir.

Bu fonda koronavirusun nəticələrinin qarşısının alınması üzrə həm Qırğızıstanda, həm də Azərbaycanda görülən tədbirlərlə yanaşı, yuxarıda göstərilən ikitərəfli görüşlər və danışıqlar çərçivəsində əldə edilmiş razılaşmaların reallaşdırılması üzrə fəal iş gedir.

Xüsusi halda, gündəlikdəki aktual məsələlərin müzakirəsi üçün xarici siyasət idarələrinin başçıları müntəzəm olaraq operativ əlaqə saxlayırlar. Aprelin 27-də Qırğız Respublikasının və Azərbaycan Respublikasının xarici siyasət idarələrinin başçıları arasında telefon söhbəti olub, koronavirusa qarşı mübarizə şəraitində qarşılıqlı fəaliyyət məsələləri müzakirə edilib.

Bu il aprelin 10-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş fövqəladə Sammitinin əhəmiyyətini xüsusi qeyd etmək istərdim. Həmin Sammitdə koronavirus infeksiyasının yayılmasına qarşı mübarizədə əməkdaşlığın gücləndirilməsi məsələləri müzakirə olundu. Tərəflərin bütün təşəbbüsləri Sammitin yekun sənədinə - Bakı bəyannaməsinə daxil edilib. Bu sənəd mehriban qonşuluq və qarşılıqlı dəstək prinsipləri əsasında formalaşmış razılaşmaların reallaşdırılması üçün siyasi platforma olmalıdır.

## Həkimlər açıqladı: Köçəryan ölüm yatağında!

Aprelin 28-də müayinə üçün xəstəxanaya köçürülən Ermənistanın həbsdə olan keçmiş prezidenti Robert Köçəryanın əməliyyat edilməsi tələb olunur. Teleqraf.com xəbər verir ki, bu barədə xəstəxananın baş həkimi Armen Çarçyan açıqlama verib.



Onun sözlərinə görə, yaşına görə Köçəryanın səhhətində ciddi problemlər əmələ gəlib və həkimlər onun vəziyyətini sabitləşdirməyə çalışırlar, lakin ona əməliyyat lazımdır. Armen Çarçyan təfərrüatları açıqlamaqdan imtina edib. Xatırladaq ki, Robert Köçəryan ötən il oktyabrın 9-da əməliyyat edilib, bədənindən şiş çıxarılıb.

## "Karantin rejiminin yenidən sərtləşdirilməsinə baxıla bilər"

"Hər kəs bilməlidir ki, vəziyyət ciddidir, təhlükə tam sovuşmayıb və məsuliyyətsiz yanaşma daha ciddi fəsadlar yarada bilər. Məhz bu səbəbdən bu gün bir sıra ölkələrdə yeni dalğanın gəlmə ehtimalı ilə bağlı geniş müzakirələr aparılır. Əgər karantin rejiminin tez bir zamanda bitməsini istəyiriksə daha ehtiyatlı və diqqətli olmalıyıq". Bunu SİA-ya millət vəkili Ceyhun Məmmədov deyib.

Deputatın sözlərinə görə, bu gün ayrı-ayrı ekspertlər təhlükənin tam sovuşması tarixi ilə bağlı müxtəlif bədbin proqnozlar səsləndirirlər: "Ona görə bir sıra ölkələr karantin rejiminin tətbiqini yenidən uzatdılar. Qeyd etmək lazımdır ki, Azərbaycan hökumətinin həyata keçirdiyi uğurlu siyasət nəticəsində biz pandemiyanın təsirlərini ciddi hiss etmədik. İlk gündən cənab Prezident məsələ ilə bağlı adekvat və operativ qərarlar qəbul etdi. Pandemiyanın ölkə iqtisadiyyatına və vətəndaşlara təsirini azaltmaq üçün ciddi addımlar atıldı, bir neçə mühüm sərəncam imzaladı, yeni tibb müəssisələri yaradıldı. Azərbaycan bu sahədə nümunəvi bir model ortaya qoymağa müvəffəq oldu. Hazırda bir sıra ölkələr Azərbaycanın təcrübəsindən yararlanırlar. Bu işi sona kimi uğurla tamamlamaq lazımdır. Buna yalnız həmrəylik nümayiş etdirərək birlikdə nail ola bilərik. Qeyd etməliyik ki, pandemiya ilə mübarizədə iki mühüm tərəf var. Bir dövlət hansı ki, bu istiqamətdə ardıcıl



və məqsədyönlü tədbirlər həyata keçirir. İkinci tərəf isə vətəndaşlardır. Bu sınaqdan üzüağ çıxmaq üçün hamı səfərbər olmalı, vətəndaşlar müəyyənləşdirilən norma və qaydalara əməl etməlidirlər. Ona görə bir daha üzümüzü vətəndaşlara tutaraq məsələyə həssas yanaşmağa, tam arxayın olmamağa çağırırıq. Qaydalara əməl olunmadığı təqdirdə xəstəlik halları daha da arta və karantin rejiminin yenidən sərtləşdirilməsinə baxıla bilər".

# “Prezidentin addımı korrupsiyaya qarşı daha ciddi mübarizə aparılacağına bir işarədir”



***“Ümumiyyətlə, bu gün hansısa dövlət özündə islahatları aparıb dünya ilə ayaqlaşa bilmirsə, o istər-istəməz məhvə məhkumdur. Azərbaycanda isə bu proses daima getməkdədir, kompleks islahatların yeni mərhələsi isə cənab Prezident İlham Əliyev tərəfindən 2018-ci ilin prezident seçkilərindən sonra başladı. Ölkə başçısı növbəti dəfə Prezident seçildikdən dərhal sonra həm islahatların anonsunu verdi, həm də praktiki addımlarını atdı”. Bu fikirləri SİA-ya açıqlamasında “Resurs” Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.***

Mərkəz rəhbərinin sözlərinə görə, kompleks islahatlar həm struktur islahatlarıdır, həm də kadr islahatlarıdır: “Burada əsas məsələ düşüncəni, kadrları və strukturu modernləşdirməkdən gedir. Hazırda dünyada mövcud olan koronovirus (COVİD-19) pandemiyası dövründə də göründü ki, cənab Prezident necə vaxtında həm struktur, həm də kadr islahatlarını həyata keçirdi. Məhz bunun nəticəsində Azərbaycanda Nazirlər Kabineti yanında yaradılmış Operativ Qərargah birbaşa ölkə başçısının tələbi və rəhbərliyi ilə bu gün dünyada baş verən pandemiyaya qarşı mübarizədə çox çevik, operativ proqram həyata keçirdi. Artıq nəticə göz önündədir. Azərbaycan bir çox super dövlətlərdən daha tez bu epidemiyanın qarşısını aldı. Bunun özü bir növ həmin islahatların tərkib hissəsidir.

İkincisi, kadr islahatlarından danışarkən biz görürük ki, bu gün icra sistemi daha çox göz önündədir. Çünki yerli icra strukturları birbaşa vətəndaşlarla, insanlarla ünsiyyətdə olur və fəaliyyət göstərir. Məhz buna görə də icra sistemində səhvlər olduğu halda daha tez üzə çıxır. Maraqlı cəhət odur ki, cənab Prezident son dövrlərdə həm yeni təyin etdiyi kadrlara bu məsələlərlə bağlı xəbərdarlıq edib və töhmət verib, həm də korrupsiya halı varsa uzun müddət fəaliyyət göstərmiş icra başçısına qarşı da əməliyyat həyata keçirilib və cinayət işi açılıb. Bunun özü bir daha göstərir ki, ölkə başçısı tərəfindən necə ki, struktur, kadr islahatlarının həyata keçirilməsində dönməz proses inkişaf edib, eyni zamanda da korrupsiyaya qarşı mübarizədə də elan etdiyi kimi proses qətidir, dönməzdir və əsla geriyə yol yoxdur. Bu addımlar göstərir ki, ölkə başçısının heç kimə güzəştə getmək fikri yoxdur.

Nüansa çıxaraq demək istərdim ki, mənim elmi işimin də mövzusuda budur ki, müasir hüquqi dövlət quruculuğu təkcə ali və ən müasir humanist qanunların nəzəri cəhətdən yazılışı və qanunların qəbulu ilə deyil, əksinə bu qanunları həyata tətbiq edən, bu qanunlara riayət edən, bu qanunların subyekti olan insanların düşüncəsində, təfəkküründə gərək ali hisslər olsun. Ən müasir qanunlarla bərabər həmçinin o qanunların icraçısı, iştirakçısı olan Azərbaycan vətəndaşları da gərək o qanunlar kimi yüksək şüur, düşüncə, inkişaf baxımından həmin qanunlara cavab verən səviyyədə müasirləşsin. Bir sözlə, inkişaf təkcə qanunlarda deyil, həm də şüurlardadır. Bu iki faktor mütənasib olmalıdır.

Azərbaycan Prezidentinin struktur, kadr islahatları ilə bağlı elan etdiyi kurs dönməz olduğunu sübut edir. Bu günlərdə Azərbaycan Respublikasının Baş Prokuror vəzifəsinə Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin rəhbərinin təyinatı da həmin kursun dönməz olduğunu bir daha sübut edir və həmçinin korrupsiyaya qarşı mübarizədə daha da yüksək nəticələr əldə olunacağına və mübarizə aparılacağına bir işarədir”.

# Baş prokuror Kamran Əliyev kollektivə təqdim edilib

***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev və Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov respublikanın yeni təyin olunmuş Baş prokuroru Kamran Əliyevi prokurorluğun kollektivinə təqdim edib.***



Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təqdimat zamanı çıxış edən Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prokurorluq orqanlarına xüsusi diqqət və qayğısı, Kamran Əliyevin prokurorluq orqanlarındakı peşə fəaliyyəti barədə danışıb, Zakir Qaralovun prokurorluq orqanlarına rəhbərlik etdiyi dövrdə görülmüş işləri yüksək qiymətləndirib.

Çıxışda prokurorluq orqanlarının ölkənin hüquq sistemində mühüm yeri qeyd edilməklə dövlət başçısı tərəfindən prokurorluq orqanlarının qarşısına qoyulmuş vəzifələrin icrası ilə bağlı məsləhət və tövsiyələr kollektivin diqqətinə çatdırılıb.

Tədbirdə Fuad Ələsgərov çıxış edərək bildirib ki, təməli xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla davam etdirilən daxili və xarici siyasət sayəsində ölkəmiz günbəgün inkişaf edir və daha da qüdrətlənir. Dövlətimizin başçısının diqqət və qayğısı nəticəsində respublikanın hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının qorunmasında xüsusi yeri və rolu olan prokurorluq orqanları yüksək standartlara və müasir tələblərə uyğun sivil təsisat kimi formalaşıb.

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev göstərilən etimada görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirərək qeyd edib ki, ölkə başçısının müdrik rəhbərliyi ilə doğma kollektivlə çiyin-çiyinə yüksək etimadı doğrultmaq üçün bütün səylərini səfərbər edəcək, respublikanın digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyin, qanunçuluğun və cəmiyyətin cinayətkar qəsdlərdən qorunmasını təmin etməklə ölkəmizdə sabitliyi pozmaq istəyən qüvvələrə qarşı barışmaz mövqe nümayiş etdirəcək.

Kamran Əliyev əminliyini bildirib ki, vətənpərvərlik və peşəkarlıq irsi prokurorluq əməkdaşları tərəfindən daim uca tutulacaq, xalqa və dövlətə sədaqətlə xidmətin əsas prinsiplərini təşkil edəcəkdir.

Tədbirdə iştirak edən Zakir Qaralov ümummilli lider Heydər Əliyevin dövlətçilik prinsiplərinin prokurorluq orqanlarında daim rəhbər tutulduğunu xüsusi qeyd edərək fəaliyyətinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirib.

Çalışdığı müddət ərzində prokurorluq orqanlarına daim verilən yüksək qiyməti, göstərilmiş etimadı doğrultmağa, bu peşəni şərəflə daşımağa çalışdığını vurğulayan Zakir Qaralov son illər ərzində ölkənin məhkəmə-hüquq sistemində aparılan ciddi islahatların hüquq sistemində prokurorluğun rolunu artırmaqla qarşısına yeni vəzifələr qoyduğunu qeyd edib. O, Kamran Əliyevə xidməti fəaliyyətində yeni-yeni müvəffəqiyyətlər arzulayıb.

# Xüsusi karantin rejimi dövründə “Nar” abunəçilərinə səyyar və onlayn xidmət göstərməkdə davam edir

Koronavirus pandemiyaslı ilə əlaqədar olaraq ölkədə tətbiq edilən karantin rejimi müddətində “Nar” öz müştərilərinin təhlükəsizliyini təmin etmək üçün gücləndirilmiş iş rejimində fəaliyyətini davam etdirir. Müştərilərə fasiləsiz yüksəkkeyfiyyətli xidmətlərin göstərilməsi üçün mobil müştəri xidmətləri və nömrələrin evə çatdırılması xidməti tətbiq edilib. “Nar” nömrəsi almaq istəyənlər evdən çıxmadan, narsim.az vebsaytından seçdikləri nömrələrin birbaşa evə çatdırılmasını sifariş edə bilərlər. Səyyar nömrə xidməti ilə Bakı, Abşeron, Sumqayıt və daha 23 şəhərdə 1000-dən çox nömrə sifarişi birbaşa abunəçilərin ünvanına çatdırılıb.




Bundan başqa, aprelin 6-dan başlayaraq Bakı və Abşeron yarımadasını əhatə edən “Səyyar Nar” layihəsi çərçivəsində 140-dan çox müştəriyə evində xidmət göstərilib. Qeyd edək ki, “Səyyar Nar” abunəçilərə evlərini tərk etmədən bir çox əməliyyatları birbaşa ünvanlarında əldə etmək imkanı verir. Abunəçilər “Nar” xidmət mərkəzlərində göstərilən bütün xidmətlər üçün, eləcə də, SIM kartın dəyişdirilməsi, nömrə bərpası əməliyyatları və ASAN İmza xidmətinin aktiv edilməsi üçün “Səyyar Nar”a müraciət edə bilərlər.

“Nar” xüsusi karantin rejimi dövründə abunəçilərin evdən çıxmaması üçün onlayn kanalları vasitəsilə də müştərilərə xidmət göstərməkdə davam edir. Müştəri xidməti funksiyasını yerinə yetirən sosial media səhifələri və “Nar+” tətbiqi vasitəsilə daxil olan sorğular dərhal cavablandırılır. Belə ki, martın sonlarından indiyədək “Nar+” tətbiqinə daxil olmuş müraciətlər 2 dəfə artaraq 3,4 milyondan çox sorğu emal olunub. “Nar+” tətbiqinin onlayn çat xidmətinə isə 55 minə yaxın müraciət daxil olub. Qeyd edək ki, tətbiq abunəçilərə evlərindən çıxmadan, 24/7 rejimində fəaliyyət göstərən müştəri xidmətlərindən yararlanmaq imkanı verir.

Bütün qeyd edilən xidmətlərlə yanaşı, abunəçi sorğularının fasiləsiz və operativ cavablandırılması məqsədilə “Nar” Müştəri Xidmətləri və 777 Çağrı Mərkəzi də gücləndirilmiş rejimdə fəaliyyətini davam etdirir. Martın sonlarından aprelin sonuna qədər 777 Çağrı Mərkəzinə 705 mindən çox zəng daxil olub.

# “Azərbaycan dövləti bu cür məmurlardan xilas olunmalıdır”

“Ümummiyyətlə cənab Prezident İlham Əliyevin atdığı bütün addımlar onun strategiyasının əsas tərkib hissəsidir. Məmurlar öz məsuliyyətini dərk etməlidirlər”. Bunu SİA-ya millət vəkili Asim Mollazadə deyib.



Deputatın sözlərinə görə, ölkə başçısı dəfələrlə deyib ki, məmurların əsas vəzifəsi xalqın xidmətində olmaq, xalq üçün işləmək və dövlətin siyasətini həyata keçirməkdir: “Prezidentin atdığı addımlarla məmurların harınlamasına, xalqdan üz döndərib öz ciblərini doldurmasına və xalqın, dövlətin malını, pulunu mənimsəməsinə son qoyulur. Əminəm ki, bu istiqamətdə addımlar bundan sonra da davam etdiriləcək və Azərbaycan dövlətinin bütün strukturlarında zəruri islahatlar davam edəcək. İslahatlar qaçılmazdır və mütləq davamlı olunmalıdır. Hər bir addım Azərbaycan dövlətinin güclənməsinə, ölkəmizin müasir, müstəqil, demokratik dövlətə çevrilməsinə xidmət edir. Bəzi məmurların ağlı ancaq oğurluğa çatır. Siz özünüz də görürsünüz ki, onlar hansı kobud səhvlərə və çirkin işlərə əl atırlar. Artıq vaxt gəlib ki, Azərbaycan dövləti bu cür məmurlardan xilas olunmalıdır”.

# Vətəndaş məktubları: "Cənab Prezident, bir daha əmin olduq ki, xalqımızın sağlamlığı, rifahı Sizin üçün hər şeydən önəmlidir"

*Azərbaycanda koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması ilə bağlı atdığı qətiyyətli addımlara görə Prezident İlham Əliyevə vətəndaşlardan çoxsaylı minnətdarlıq məktubları gəlməkdə davam edir. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir. Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən Rəmziyə Abbasova yazır: "Möhtərəm cənab Prezident, mən Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin tələbəsi, Dövlət Gömrük Komitəsinin "Könüllü gömrükçü" dəstəsinin üzvüyəm.*

Cənab Prezident, 200-dən artıq ölkədə milyonlarla insanı yoluxduran, çoxsaylı ölüm halları ilə nəticələnən koronavirus pandemiyanın ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə atdığınız addımlar təqdirəlayiqdir. Ölkəmizdə hələ virusa yoluxma halı qeydə alınmamışdan əvvəl görülən qabaqlayıcı tədbirlər və verilən qərarlar, o cümlədən sərhədlərin bağlanması, xaricdəki vətəndaşlarımızın Vətənə dönmələrinə şərait yaradılması, səhiyyə sahəsində infrastrukturun möhkəmləndirilməsi virusun Azərbaycanda yayılmasının qarşısını almağa imkan verdi. Bu gün Azərbaycan virusla mübarizədə ən qabaqcıl ölkələrdəndir. Mən 2-ci qrup Qarabağ müharibəsi əlilinin qızı, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakini diqqət və qayğınızı təkcə bu günlərdə deyil, hər zaman hiss edən gənc vətəndaş olaraq Sizə minnətdarlığımı bildirir, müasir dünyagörüşünə sahib, Vətəninə, xalqına bağlı bir gənc və layiqli vətəndaş olmaq, bizə göstərdiyiniz etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyimə söz verirəm. Möhtərəm cənab Prezident, biz - könüllü gömrükçülər Sizin çağırışlarınıza səs verir, güclü dövlətçiliyimiz və yüksək rifahımız naminə atdığınız addımlara görə Sizə təşəkkürümüzü bildirir və Sizinlə fəxr edirik. Allah Sizi və xalqımızı qorusun!. Biz birlikdə güclüyük!".

Azərbaycan Kənd Qadınları Assosiasiyasının "Qız yurdu" qrupunun üzvü Natavan Fətullayeva: "Cənab Prezident, bütün dünyanı bürüyən koronavirus bəlası bizim ölkəmizdən də yan keçmədi. Lakin Sizin uzaqgörən siyasətiniz nəticəsində ölkə daxilində təxirəsalınmaz və sistemli tədbirlər həyata keçirildi. Nəticədə bu infeksiyanın geniş kütləyə yayılmasının qarşısı alındı. Möhtərəm Prezident, xalqın mənafeyini daim hər şeydən üstün tutduğunuz aşkardır. Sosial izolyasiya şəraitində ölkə əhalisini ərzaq məhsulları ilə təmin edən kənd təsərrüfatının fəaliyyətinə məhdudiyyətin tətbiq olunmaması buna daha bir sübutdur. Kənd təsərrüfatının inkişafı üçün gördüyünüz tədbirlər bu gün özünü göstərməkdədir. Əkinin əkilməsi, biçilməsi, tədarükü və satışla bağlı heç bir problem yoxdur. Daim xalqın yanında olduğunuz üçün Sizə təşəkkürümüzü bildirirəm".

Bakı şəhərinin Suraxanı rayonunun sakini Ələddin Xələfli: "Hörmətli cənab Prezident, artıq neçə aydır koronovirus adlı xəstəlik dünyaya və insanlığa meydan oxuyur. Baxıb görürük ki, bu ağır sınaqdan çox az ölkə üzüağ çıxacaq. İnanırıq ki, onlardan biri də bizim Vətənimiz olacaq. Çünki Siz bu gözəgörünməz bəlanın qarşısının alınması üçün böyük işlər görürsünüz. Bunun nəticəsində gözəgörünməz bəlanın ölkəmizdə minimum həddə olması sevindirici haldır. Ümid edirik ki, gördüyünüz işlərin nəticəsində xalqımız COVID-19 virusundan tezliklə qurtulacaq. Həmişə olduğu kimi, bu çətin günlərdə də xalqın yanında olduğunuza, xalqa qayğı göstərdiyinizə görə şəxsən öz adımdan və ailəmin adından Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin dediyiniz kimi "Biz birlikdə güclüyük!". Ulu Tanrı Sizi qorusun!".

Oğuz rayonunun sakini Günay Haşımovanın məktubunda deyilir: "Möhtərəm cənab Prezident, bu məktubu yazmaqda məqsədim ailəmiz adından Sizə qarşı hörmətimi və sonsuz inamımı bildirməkdir. Azərbaycan xalqı koronovirus pandemiyası dövrünü yaşayarkən Siz təkcə böyük məsuliyyət hissi olan, bu günü deyil, gələcəyi düşünən lider kimi yox, həm də bir qayğıkeş ata, ürəyi yanan qardaş kimi xalqa arxa-dayaq oldunuz. Azərbaycan azsaylı dövlətlərdəndir ki, Sizin sayənizdə koronovirus pandemiyasını vaxtında cilovlamağı bacardı və dünya ölkələri arasında bu istiqamətdə ciddi tədbirlər görən ilk ölkələrdən biri oldu. Bizə və övladlarımıza xoşbəxt gələcək vəd edən daxili və xarici siyasətinizi dəstəkləyirəm. Bu dövrdə verdiyiniz hər bir qərar, imzaladığınız sərəncamlar, əhalinin həssas qrupuna aid olan tələbələrin təhsil haqqının dövlət tərəfindən ödənilməsi bir daha sübut etdi ki, Siz ən sadə bir vətəndaşa da necə diqqət və qayğı ilə yanaşırsınız. Mən də bir təhsil işçisi olaraq Sizə inanıram. Sizin bütün çağırışlarınıza riayət edərək bu bəladan tezliklə qurtulacağımıza əminəm. Çünki nə qədər ki, Sizin kimi sözü ilə əməli bir olan rəhbərimiz var, heç bir bəla bizi sarsıda bilməz. Sizin mənəvi dəstəyiniz bizə həyat eşqi, stimul verir. Mən fəxr edirəm ki, Sizin kimi qayğıkeş bir rəhbəri olan Azərbaycan Respublikasında yaşayıram, dahi liderimiz Heydər Əliyevin çox yüksək qiymətləndirdiyi peşə olan müəllim işləyirəm".

Qaradağ rayonundan məktəbli Məhəmməd Novruzsoy yazır: "Əziz Prezidentimiz, mən Şuşa rayon 7 nömrəli tam orta məktəbin 3 "a" sinif şagirdiyəm. Mən də böyüyəndə Sizin kimi vətənini sevən, öz xalqı yolunda əlindən gələni edən bir vətəndaş olacağam. Mənim atam cəsur insanlar yetişdirən Laçın rayonunda, anam isə Azərbaycanın dilbər guşəsi olan Şuşa şəhərində anadan olub. Onlara demişəm ki, mən böyüyəndə hərbiçi olacağam, bu işi pul qazanmaqdan ötrü yox, işğalda olan torpaqlarımızı azad etmək üçün seçmişəm. Atam deyir ki, Ali Baş Komandanımız döyüş əmri verəndə, Vətən yolunda döyüşə gedəcəyik. Mən də Sizin əsgəriniz olacağam. İndi biz məktəbə getmirik, evdə onlayn dərslər keçirik. Valideynlərim deyir ki, vəziyyət tezliklə düzələcək, biz yenə də doğma məktəbimizə qayıdacağıq. Çünki Sizin doğru zamanda verdiyiniz qərarlar nəticəsində bizim ölkəmiz dünyanı bürüyən koronavirus pandemiyasından az itkilərlə çıxdı. Cənab Prezidentimiz, Siz televiziyada çıxış edəndə mən Sizə qulaq asıram. Sizin Paşinyana verdiyiniz cavabları atam mənə izah etdi. Mən Sizinlə fəxr edirəm. Çox sağ olun ki, bizim Prezidentimizsiniz".

Yardımlı rayonunun Ostayır kəndindən Ağagül Nəbiyev: "Hörmətli cənab Prezident, mənim 90 yaşım var. Həyatın hər üzünü görmüşəm. Ulu öndər Heydər Əliyevin dövründə uzun illər məsul vəzifələrdə çalışmışam. O illəri indi də xoş duyğularla xatırlayıram. İndiki koronavirus zamanında xalqımızın sağlamlığı üçün Sizin rəhbərliyinizlə atılan bütün addımları dəstəkləyirəm. Bir daha əmin oldum ki, xalqımızın həyatı, sağlamlığı Sizin üçün hər şeydən önəmlidir. Mehriban xanım Əliyevanın bizim kəndin aztəminatlı ailələrinə göndərdiyi ərzaq yardımı təkcə maddi kömək deyil, həm də onun sübutudur ki, Siz və Mehriban xanım xalqımızın kədərinə də, sevincinə də hər zaman şəriksiniz. Ulu Tanrı birliyimizi, həmrəyliyimizi daha da möhkəm etsin!".

Masallı rayonunun Qasımlı kəndindən Əfqan Cabbarov: "Hörmətli cənab Prezident, Sizin yorulmaz və fədakar fəaliyyətinizi, iştirak etdiyiniz tədbirləri və etdiyiniz çıxışları izlədikcə əmin oluruq ki, koronavirus pandemiyasının qarşısının alınması və digər məqsədlər üçün Azərbaycanda həyata keçirilən bütün işlərin mərkəzində insan amili dayanır. Siz əhalinin sağlamlığının təmin olunması məsələsinə çox həssaslıqla yanaşırsınız. Bu qayğılı günlərdə Azərbaycan xalqını düşündüyünüzə, onunla birlikdə olduğunuza görə Zati-alinizə təşəkkürümü bildirir, şəxsən öz adımdan və ailəm adından Sizə uzun ömür, cansağlığı arzu edirəm".

Qazax rayonunun Canalı kəndinin sakini Orxan Səfərov dövlətimizin başçısına minnətdarlığını bu sözlərlə ifadə edir: "Hörmətli cənab Prezident, Sizin geniş dünyagörüşünüzə, böyük siyasi təcrübənizə və dərin təfəkkürünüzə əsaslanan qərarlarınız, xalqımızın sağlamlığının qorunması və təhlükəsizliyinin təmin olunması istiqamətində atdığınız addımlar artıq öz nəticəsini verməkdədir. Ümumbəşəri bəla olan koronavirusla mübarizədə dünyanın inkişaf etmiş dövlətlərinin aciz qaldığı bir zamanda Sizin vaxtında gördüyünüz qabaqlayıcı tədbirlər nəticəsində pandemiyadan minimum ziyanla çıxacağımıza ümid bəsləyirik. Pandemiya ilə əlaqədar ölkəmizin digər bölgələrində olduğu kimi, Qazax rayonunda da çox yüksək səviyyədə təxirəsalınmaz tədbirlər həyata keçirildi. Sərhəd bölgəsində yaşayan kənd sakinlərinin, şəhid ailələrinin, qaçqınların və məcburi köçkünlərin, xüsusi qayğıya ehtiyac duyan ahıl insanların və sosial təminat baxımından digər həssas təbəqələrin ehtiyacları yüksək səviyyədə qarşılanmaqdadır. Biz rayonumuzun ictimai fəalları olaraq ölkədə gedən siyasi prosesləri daim izləyir və 2020-ci ili "Könüllülər ili" elan etməyinizdən istifadə edərək, həm müsbət siyasi addımları, həm də rastlaşdığımız çatışmazlıqları Sizin çağırışınıza uyğun olaraq lazımi qurumlara çatdırmağı özümüzə borc bilirik. Biz qazaxlılar Sizin "Biz birlikdə güclüyük!" çağırışınızı bir şüara çevirmişik, Azərbaycan xalqının etibarlı və firavan gələcəyinə, sosial rifahına hesablanmış uzaqgörən siyasətinizi daim dəstəkləyirik".

Ağstafa rayonunun Dağ Kəsəmən kəndindən Aidə Maxanova: "Hörmətli cənab Prezident, bu gün bütün dünyanın bəlasına çevrilmiş koronavirus pandemiyası (COVID-19) ölkəmizdən də yan keçmədi. Bu ağır günlərdə Sizin müdrikcəsinə gördüyünüz qabaqcıl tədbirlər, uzaqgörən siyasətiniz nəticəsində ölkəmiz digər güclü dövlətlərlə müqayisədə olduqca yaxşı mövqedə dayanaraq dünyanın bir çox dövlətlərinə əsl nümunə oldu. Sizin ölkəmiz, xalqımız üçün gördüyünüz işlər hər bir kəsə bəllidir. Bu günlərdəki fədakarlığınız da göz önündədir. Ağır günlərdə daim xalqımızı düşündüyünüz, ona dəstək olduğunuz və onun qayğısına qaldığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Möhtərəm cənab Prezident, ölkə vətəndaşlarının sağlamlığının qorunması naminə gördüyünüz işlərə görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya bir mədəniyyət işçisi kimi dərin təşəkkürlərimi bildirir, ətrafınızda sıx birləşərək daim Sizə dəstək olacağımıza söz verirəm. Müstəqil Azərbaycanımızın daha da inkişafı naminə gələcək işlərinizdə Sizə nailiyyətlər arzulayıram".

Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, professor Arif Şəkərəliyev: "Möhtərəm Prezident, koronavirus

# Vətəndaş məktubları: “Cənab Prezident, bir daha əmin olduq ki, xalqımızın sağlamlığı, rifahı Sizin üçün hər şeydən önəmlidir”

(COVID-19) epidemiyasının bütün dünyanı bürüdüyü, minlərlə insanın bu xəstəlikdən həyatını itirdiyi bir vaxtda Sizin Azərbaycan xalqının sağlamlığının qorunması naminə gördüyünüz qabaqlayıcı tədbirlər ölkənin təhsil işçiləri tərəfindən rəğbətlə qarşılanır. COVID-19 pandemiyasına qarşı apardığınız qətiyyətli mübarizəyə görə Sizə minnətdarıq. Prezidentimizin yolu Heydər Əliyev yolu, Azərbaycan yolu, xalqın gələcəyinin, güzəranının və əhval-ruhiyyəsinin daha da yaxşılaşdırılması yoludur. Azərbaycan xalqı öz doğma Prezidentinə güvənir və etibar edir. Siz güclü Azərbaycan dövlətinin ideyasını həyata keçirirsiniz. Sizin həyata keçirmiş olduğunuz iqtisadi strategiya islahatların aparılması, innovasiya, yeni texnologiyaların istehsala tətbiqi və qeyri-neft sektorunun inkişafına söykənir. Mənim çalışdığım Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professor-müəllim heyəti öz Prezidentinə həmişə sadiqdir. Cənab Prezident, Azərbaycanın ictimai-siyasi həyatında, dövlətçiliyin qorunması, ölkədə sabitliyin bərqərar olunması istiqamətində apardığınız məqsədyönlü fəaliyyətinizdə Sizə böyük uğurlar və cansağlığı arzu edirəm”.



## “Azərbaycan xalqının etibarlı və firavan gələcəyinə, sosial rifahına hesablanmış uzaqgörən siyasətinizi daim dəstəkləyirik”

Yasamal rayonunun sakini Eldəniz Seyidəliyev: “Möhtərəm cənab Prezident, Siz hər zaman olduğu kimi ölkəmizin bu çətin günlərində də vətəndaşları, o cümlədən sahibkarları hər zaman diqqət və qayğınızla əhatə edirsiniz. Sirr deyil ki, dünyanın bütün ölkələrində, o cümlədən doğma Azərbaycanımızda böyük maliyyə itkiləri baş vermişdir. Lakin bu dövrdə qəbul etdiyiniz humanist qərarlar, göstərdiyiniz diqqət və qayğı, Azərbaycan xalqının rifahının yüksəldilməsi Sizin üçün prioritet və öndə gedən məsələ olduğunu sübut etmişdir. Göstərdiyiniz bu dəstəyə, diqqət və qayğıya, yürütdüyünüz dayanıqlı siyasətə, hər zaman hər bir Azərbaycan vətəndaşının yanında olduğunuza görə Sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycan xalqı Sizinlə fəxr edir”.

Sabunçu rayonundan şagird Nurlan Cəbrayılzadə: “Möhtərəm cənab Prezident, bu gün Sizin Azərbaycan xalqının rifahı və sağlamlığı üçün gördüyünüz çoxşaxəli tədbirlər həm mənim, həm də bütün Azərbaycan xalqının xoşbəxt və sağlam gələcəyi üçündür. Bizlər hər birimiz çox şanslıyıq ki, bizi daim mühafizə edən və qoruyan Prezidentimiz var. Bu gün mən bir məktəbli kimi deyə bilərəm ki, Sizin təhsilimiz və gəncliyimiz üçün gördüyünüz əvəzsiz xidmətlər danılmazdır. Hazırda bütün dünyanı öz ağuşuna almış koronavirus pandemiyasının kəskin dalğaları Azərbaycan üzərindən çox xəfif keçir. Bütün bunlar isə Sizin əvəzsiz xidmətlərinizin bariz nümunəsidir. Mən 9-cu sinif şagirdi və ölkəmizin tərəqqi yolunda ön sıralarda olduğunun şahidi kimi deyə bilərəm ki, Sizin yorulmaz səyləriniz və tükənməz əməlləriniz sayəsində Azərbaycan inkişaf edib və edəcəkdir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun layiqli davamçısı kimi Sizin daim Ümummilli Liderimizin azərbaycançılıq ideologiyası ilə irəliləyəcəyinizə hər zaman əminəm. Tam inanıram ki, müstəqil, suveren, azad Azərbaycan Respublikasının taleyi və işıqlı gələcəyi Sizinlə bağlıdır. Sözlərimi ulu öndər Heydər Əliyevin sözləri ilə bitirmək istərdim: “Biz müstəqilik, biz azadıq, biz heç kəsdən asılı deyilik, biz özümüz öz taleyimizin sahibiyik”. Mən əminəm ki, Sizin xeyirxah əməlləriniz Azərbaycanı daim zirvələrdə saxlayacaq. Yaşasın Azərbaycan Respublikasının Prezidenti!”.

Şəki rayonunun Baş Göynük kəndindən Elxan Qəniyev: “Hörmətli Prezidentimiz cənab İlham Əliyev, Azərbaycan xalqına, o cümlədən Şəki camaatına hər zaman, həmçinin koronavirusun yayılmasının qarşısının alınması üçün görülmüş özünütəcrid tədbirləri müddətində göstərdiyiniz diqqətə, atılan addımlara, imkansız ailələrə etdiyiniz maddi yardımlara, gənc kadrların irəli çəkilməsinə, adət-ənənələrimizə uyğun olaraq yaşlı nəslə göstərdiyiniz qayğıya və hörmətə görə şəxsən öz adımdan və Baş Göynük kəndinin sakinləri adından Sizə təşəkkür edirik. Biz bir daha əmin olduq ki, Sizin sayənizdə daim müstəqil, sürətlə inkişaf edən və adət-ənənələrə hörmətlə yanaşılan bir ölkədə yaşayırıq. Siz hər bir Azərbaycan vətəndaşının yanındasınız və bizim əbədi Prezidentimizsiniz”.

YAP-ın İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan dilçiliyi kafedrasının müdiri Nizami Xudiyev: “Hörmətli cənab Prezident, dünyanın bütün ölkələrinin dəhşətli koronavirus bəlası ilə üzüzə qaldığı bir şəraitdə Sizin rəhbərliyinizlə həyata keçirilən təxirəsalınmaz, qabaqlayıcı və ardıcıl tədbirlər xalqımızın bu dəhşətli fəlakətdən ən az itki ilə çıxmasına yönəlmişdir. Bu məqsədlə ölkəmizdə ayrı-ayrı istiqamətlər üzrə gerçəkləşdirilən kompleks tədbirlər, sosial izolyasiya və karantin rejimi qaydaları, əhalinin sosial müdafiəsinə göstərilən dövlət dəstəyi, iqtisadiyyatın müəyyən sahələrinin fəaliyyətində dayanıqlılığın qorunub saxlanılması və digər fəaliyyət proqramları öz səmərəsini verməkdədir. Kütləvi informasiya vasitələrində genişmiqyaslı maarifləndirmə işlərinin aparılması, vətəndaşlarımızın sağlamlığının qorunması və müalicəsi üçün az bir vaxtda müəssisə və klinikaların inşa edilməsi, ölkəmizdən kənarda olan vətəndaşlarımıza və soydaşlarımıza dövlət səviyyəsində qayğı və dəstək göstərilməsi və digər tədbirlər Sizin yüksək liderlik keyfiyyətlərinizin və yüksək təşkilatçılıq qabiliyyətinizin nəticəsidir. Bütün bu tədbirlər kompleksi öz müsbət təsirini göstərməkdədir. Dünyanın bir sıra ölkələri ilə müqayisədə respublikamızda koronavirus pandemiyasına qarşı mübarizənin dinamikasında müsbət təzahürlər müşahidə olunur. Mən milyonlarla Azərbaycan vətəndaşlarından biri kimi ölkəmizin çox ağır bir sınaqla üzbəüz qaldığı bir şəraitdə Sizin ardıcıl və qətiyyətli şəkildə davam edən fəaliyyətinizi bəyənir və müdafiə edirəm. İnanıram ki, xalqımız və dövlətimiz bu sınaqdan uğurla çıxacaq. Sizə və xalqımıza sağlam həyat və firavanlıq arzu edirəm”.

# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Mayın 1-də Milli Məclisin yaz sessiyasında növbəti plenar iclası keçirilib. AZƏRTAC ?xəbər verir ki, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova gündəlik barədə məlumat verib. Əvvəlcə iclasda “Azərbaycan Respublikası Baş prokurorunun vəzifəyə təyin edilməsinə razılıq verilməsi haqqında” məsələ müzakirə edilib. İclasda iştirak edən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Azərbaycan Prezidenti İlham Əliyevin təqdimatına əsasən, Baş prokuror vəzifəsinə Baş prokurorun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi Kamran Əliyevin namizədliyinin irəli sürüldüyünü bildirib. Namizədin bioqrafiyası haqqında məlumat verən Ədalət Vəliyev Kamran Əliyevin fəaliyyətinin dövlət tərəfindən yüksək qiymətləndirildiyini vurğulayıb.***

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli qeyd edib ki, bu illər ərzində Milli Məclislə Baş Prokurorluq arasında sıx əməkdaşlıq olub. O deyib ki, Kamran Bayram oğlu Əliyevin namizədliyini Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclasında komitənin üzvləri dəstəkləyərək müsbət rəy veriblər. Kamran Əliyevin Baş prokuror vəzifəsinə namizədliyinin irəli sürülməsi hüquq ictimaiyyəti tərəfindən də müsbət qarşılanır.

Sonra səsvermə yolu ilə Kamran Əliyevin Baş prokuror vəzifəsinə namizədliyi dəstəklənib.

İclasda iştirak edən Kamran Əliyev çıxış edərək deyib: “Mənə yüksək etimad göstərdiyinə görə, möhtərəm Prezident İlham Əliyevə öz dərin minnətdarlığımı bildirirəm. Azərbaycan müstəqillik illərində çətin və şərəfli inkişaf yolu keçib. Ulu öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti nəticəsində ölkəmiz ağır vəziyyətdən çıxaraq inkişaf yoluna qədəm qoyub. Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi daxili və xarici siyasət nəticəsində Azərbaycan dünyada qabaqcıl mövqelərdən birini tutub. Xalqın maraqlarının qorunması, hüquqi qaydaların qorunması, təhlükəsizliyin təminatına ciddi nəzarət Azərbaycan prokurorluğu qarşısında da ciddi vəzifələr qoyur.

Bu yüksək kürsüdən sizi əmin etmək istəyirəm ki, Azərbaycan Prokurorluğu bundan sonra da hər zaman qanunun aliliyinin təmin edilməsi, cinayətkarlığa qarşı mübarizə tədbirlərinin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının etibarlı müdafiəsi sahəsində üzərinə düşən vəzifələri ləyaqətlə yerinə yetirəcək, dövlətimizə və xalqımıza sədaqətlə xidmət edəcək”.

İclasda sonra Azərbaycan Respublikası Hesablama Palatasının illik hesabatı dinlənilib.

Hesabatı təqdim edən Palatanın sədri Vüqar Gülməmmədov qeyd edib ki, qurumun hesabatı qanunun tələblərinə uyğun hazırlanıb. 2018-2020-ci illər üzrə qəbul edilmiş Strateji İnkişaf Planı ilə nəzərdə tutulmuş məqsədlərə dair tədbirlər, qurumun ötən ildəki həm nəzarət, həm də inzibati fəaliyyəti üzrə əsas nəticələr hesabatda öz əksini tapıb.

Bildirilib ki, dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının layihəsi, eləcə də dövlət büdcəsinin icrası ilə bağlı Milli Məclisdən daxil olan qanun layihələrinə dair Hesablama Palatasının verdiyi rəylərdə həm icra, həm də layihə sənədləri ciddi təhlil edilib, mümkün risklər araşdırılıb, problemlər göstərilib və onların aradan qaldırılması məqsədilə tövsiyələr verilib.

Palata sədri məlumat verib ki, 2019-cu ildə 47 audit və 6 analitik fəaliyyət həyata keçirilib. Yeni Qanunun tələblərinə uyğun olaraq 28 uyğunluq, 7 maliyyə, 8 maliyyə və uyğunluq, həmçinin ilk dəfə olaraq 4 səmərəlilik auditi aparılıb. Hesabatda 43 maliyyə və uyğunluq auditinin nəticələri icmallaşdırılıb, yol verilən pozuntular təsnifləşdirilərək ayrı-ayrı audit olunan qurumlar üzrə say və ümumi məbləğdə xüsusi çəkisi müəyyən edilib.

Daha sonra məsələ ilə bağlı müzakirələr aparıldı. Hesablama Palatasının sədri Vüqar Gülməmmədov müzakirədə səslənmiş təkliflərə münasibət bildirib, sualları cavablandırıb.

Müzakirələrin sonunda Hesablama Palatasının 2019-cu ildəki fəaliyyətinə dair hesabatı səsə qoyularaq məqbul hesab edilib. Fasilədən sonra gündəlikdəki digər məsələlərin müzakirəsinə başlanılıb.

Əvvəlcə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İordaniya Dəniz Komissiyası arasında Dənizçilərin hazırlanmasına, onlara diploma verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiyanın (əlavələrlə) I/10-cu qaydasına uyğun olaraq sertifikatların (diplomların) tanınması haqqında” Anlaşma Memorandumunun təsdiq edilməsi barədə qanun layihəsi haqqında məlumat verib. Qeyd olunub ki, bu sənəd hər iki tərəf arasında dənizçilərə ixtisas şəhadətnamələrinin verilməsini nəzərdə tutur. Sənəd səsə qoyularaq qəbul edilib.

Sonra iclasda Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli “Yol hərəkəti haqqında”, “Sosial sığorta haqqında”, “Tibbi sığorta haqqında”, “İşsizlikdən sığorta haqqında”, “Məşğulluq haqqında”, “Dövlət rüsumu haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Ətraf mühitin mühafizəsi haqqında”, “Baytarlıq haqqında”, “Fitosanitar nəzarəti haqqında” və “Yeyinti məhsulları haqqında” qanunlarda və Azərbaycan Respublikasının 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə qanun layihəsini, eləcə də Əmək Məcəlləsində, Torpaq Məcəlləsində, Vergi Məcəlləsində, Gömrük Məcəlləsində və Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında sənədləri üçüncü oxunuşda təqdim edib. Sənədlər səsə qoyularaq qəbul edilib.

İclasda Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi də üçüncü oxunuşda təsdiqlənib.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında”, “Kütləvi informasiya vasitələri haqqında”,



“Televiziya və radio yayımı haqqında”, “Azərbaycan Respublikasında dövlət dili haqqında” və “İctimai televiziya və radio yayımı haqqında” qanunlarda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) sənədi şərh edərək bildirib ki, dəyişiklik zərurəti Azərbaycanın dövlət dilinin tətbiqinə nəzarətin və dil normalarının qorunmasının təmin edilməsi vacibliyindən irəli gəlir. Layihəyə əsasən, adıçəkilən 5 qanunun 8 maddəsinə bir formulada dəyişiklik təklif olunur. Məqsəd Azərbaycan dilinin hüquqi statusunun qorunması, bu dilin işlənməsi və inkişafı üçün zəruri tədbirlərin görülməsidir. Həmçinin televiziya və radioda, KİV-də, internet resurslarında, reklam daşıyıcılarında ədəbi dilin normalarının və leksik-qrammatik qaydaların pozulması hallarının, əcnəbi söz və ifadələrin işlədilməsinin qarşısını almaqdır. Ətraflı müzakirələrdən sonra qanun layihəsi səsvermə yolu ilə təsdiqlənib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev İnzibati Xətalar Məcəlləsində və 1996-cı il 17 mart tarixli 74-IQ nömrəli Qanunla təsdiq edilmiş “Milli Məclisin Daxili Nizamnaməsi”ndə, “Televiziya və radio yayımı haqqında”, “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” və “İctimai televiziya və radio yayımı haqqında” qanunlarda dəyişiklik edilməsi haqqında sənədləri ikinci oxunuşda şərh edib. Komitə sədrinin müavini bildirib ki, bu qanun layihələri “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 1 noyabr tarixli Prezident Fərmanının icrası ilə əlaqədardır. Sənədlər səsvermə yolu ilə təsdiqlənib.

İclasda Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva “Tarix və mədəniyyət abidələrinin qorunması haqqında” və “Azərbaycan Respublikasında dövlət dili haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Layihə səsə qoyularaq təsdiq edilib.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev “Sosial sığorta haqqında” Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda şərh edib. Bildirilib ki, sənəd ölkə Prezidentinin qanunvericilik təşəbbüsü ilə Milli Məclisə daxil olub. Prezident İlham Əliyevin cari il martın 19-da imzaladığı “Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” Sərəncamın 10.2-ci bəndinin icrası ilə əlaqədar Nazirlər Kabineti 2020-ci il 4 aprel tarixdə Tədbirlər Planını təsdiqləyib. “Sosial sığorta haqqında” Qanunda aparılan dəyişikliklər bu məsələlərlə əlaqədardır. Qanun layihəsi özündə bir sıra sahibkarlıq subyektlərində, fiziki və hüquqi şəxslər arasında sosial sığorta haqlarının azaldılması və bununla bağlı güzəştləri ehtiva edir. Sənəd səsə qoyularaq təsdiqlənib. Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Miqrasiya Məcəlləsində və “Turizm haqqında” Qanunda dəyişiklik edilməsi haqqında sənədləri (birinci oxunuş) təqdim etdi. Bildirilib ki, Azərbaycan Prezidenti 2019-cu ilin aprel ayında “ASAN viza” sistemi haqqında Əsasnamə”də dəyişiklik edilməsi ilə bağlı Fərman imzalayıb. Artıq əsasnamədə edilən birdəfəlik və çoxdəfəlik asan vizaların, sürətlənmiş elektron vizanın və hava limanında alınan vizaların verilmə müddəti ilə bağlı dəyişikliklər qüvvədədir. Təklif olunan dəyişikliklər bu məsələlərin qanunlarda da öz əksini tapması məqsədilə edilib. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Mahir Abbaszadə Vergi Məcəlləsində, “Qiymətləndirmə fəaliyyəti haqqında” və “İcra məmurları haqqında” qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) sənədi şərh edib. Qeyd olunub ki, bu dəyişiklik 2018-ci il dekabrın 28-də qəbul edilmiş “İcra haqqında” Qanuna uyğunlaşdırma məqsədi daşıyır. Sənəd səsə qoyularaq qəbul edilib.

İclasın sonunda çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova deyib: “Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən köklü islahatlar ölkəmizin siyasi və ictimai həyatının bütün sahələrini əhatə edib. Bu islahatların əsas məqsədlərindən biri də dövlət hakimiyyəti orqanlarının fəaliyyətini müasir dövrün çağırışları səviyyəsində qurmaqdır. Prezident Administrasiyası və Nazirlər Kabineti ilə yanaşı, Milli Məclis Aparatında da struktur və kadr islahatlarının aparılması zərurəti yaranmışdı. Bununla əlaqədar mən cari il aprelin 2-də sərəncam imzalamışdım. Sərəncama əsasən, Milli Məclis Aparatında və İşlər İdarəsində çalışan dövlət qulluqçuları ştatdankənar elan olunmuş və yeni struktura uyğun ştat cədvəli təsdiq edilənədək onların öz fəaliyyətini əvvəlki ştat cədvəlinə uyğun davam etdirməsi nəzərdə tutulmuşdur. Ötən bir ay müddətində Aparatın və İşlər İdarəsinin hər bir bölməsinin fəaliyyəti, hər bir əməkdaşın işi ətraflı və dərin təhlil edilib. Artıq bu iş başa çatıb.

Mən dünən bir neçə yeni sərəncam imzalamışam. Bu sərəncamlara əsasən Milli Məclis Aparatının və İşlər İdarəsinin yeni strukturu müəyyən edilib, yeni ştat cədvəli təsdiq edilib, dövlət qulluqçularının vəzifələrə təyinatları həyata keçirilmiş, bir sıra dövlət qulluqçuları ixtisar edilib. İnanıram ki, həyata keçirilən bu islahatlar parlamentin işinin daha səmərəli təşkil edilməsinə, qanun yaradıcılığı prosesinin təkmilləşməsinə kömək edəcəkdir”. Bununla da Milli Məclis bugünkü işini başa çatdırıb.

# Dövlətimizin düşünülmüş siyasəti və milli birliyimiz bu çətin sınaqdan uğurla çıxmağımızda başlıca amillərdən biri olacaq



Milli Məclisin deputatı Sevinc Hüseynovanın yap.org.az-a müsahibəsi:

***- Sevinc xanım, ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə tədbirlərini necə qiymətləndirirsiniz?***

- Bilirsiniz ki, hazırda dünya ölkələri bütün səylərini gözəgörünməz düşmən olan yeni növ koronavirus infeksiyası (COVİD-19) ilə mübarizəyə yönəldib. COVID-19 infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən 2020-ci il yanvar ayından zəruri qabaqlayıcı tədbirlərin görülməsinə başlanıb, profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradılıb. Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində çevik və sistemli preventiv tədbirlərin davamı olaraq 2020-ci il 14 mart tarixindən sosial izolyasiya qaydaları tətbiq olunub, 2020-ci il 4 may tarixinədək isə xüsusi karantin rejimi elan edilib.

COVID-19 virusunun diaqnostikası, habelə bu xəstəliyin müalicəsi üçün zəruri olan Avropa istehsalı laborator testlər, tibb avadanlığı və ləvazimatlar, qoruyucu vasitələr Azərbaycana gətirilib, ölkə ərazisində 18 laboratoriyanın fəaliyyəti təmin edilib, paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradılıb. Respublika ərazisində bir çox 4 və 5 ulduzlu mehmanxanalar, sanatoriyalar və digər infrastruktur obyektləri karantin məqsədilə ayrılıb. Bunlarla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə modul tipli yeni xəstəxanaların tikintisinə başlanılıb, mart ayının sonunda istifadəyə verilmiş “Yeni klinika” müasir tibb müəssisəsi koronavirus xəstələrinin müalicəsi üçün ayrılıb. Eyni zamanda, virusla mübarizə sahəsində ölkədəki tələbatı qarşılamaq məqsədilə qoruyucu maska və digər zəruri tibbi ləvazimatların istehsalına başlanılıb. Ümumdünya Səhiyyə Təşkilatı və digər beynəlxalq qurumlarla COVID-19 virusu ilə mübarizə çərçivəsində sıx əməkdaşlıq qurulub.

Azərbaycan Prezidentinin 2020-ci il 18 mart tarixli Sərəncamı ilə COVID-19 infeksiyası ilə mübarizə və profilaktika tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə dövlət tibb müəssisələrində çalışan işçilərin əmək haqlarına aylıq vəzifə maaşının 3-5 mislinədək miqdarda müddətli əlavə müəyyən edilib. Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması və onunla mübarizə istiqamətində səhiyyə tədbirlərinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli Fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb. Əhali və ayrı-ayrı təşkilatlar bu təşəbbüs ətrafında səfərbər olaraq həmrəylik nümayiş etdirib və koronavirusla mübarizə istiqamətindəki işlərə öz vətəndaş töhfəsini verib.

Önəmli məqamlardan biri budur ki, koronavirus pandemiyasına qarşı mübarizə sahəsində elan edilmiş xüsusi karantin rejimi dövründə çətin vəziyyətdə olan şəxslərə və tənha yaşayan 65 yaşdan yuxarı vətəndaşlara sosial xidmət göstərilməsi və müvafiq yardım edilməsi istiqamətində tədbirlər həyata keçirilir. Yük daşımaları istisna olmaqla dövlət sərhədləri müvəqqəti bağlanıb, Azərbaycan tərəfindən ayrılmış çarter reysləri ilə ölkəyə gətirilən vətəndaşlarımız karantin zonalarında yerləşdirilir, xaricdən xəstəliyin idxalının qarşısı alınır. Həyata keçirilən tədbirlər nəticəsində ölkədə pandemiya vəziyyəti nəzarət altına alınıb, insanların COVID-19 virusuna kütləvi yoluxma hallarının azaldılmasına nail olunub.

Ümumiyyətlə, COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar tətbiq olunan bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, sağlamlığının qorunması məqsədilə həyata keçirilir. Bütün bunlar Azərbaycan dövlətinin öz vətəndaşına qayğısının daha bir bariz nümunəsidir.

Fərəhləndirici haldır ki, pandemiya şəraitində Azərbaycan dünyada az itki verən azsaylı ölkələr sırasındadır. Bu da ölkəmizin həyata keçirdiyi sistemli tədbirlərin nəticəsində mümkün olub. Bu günlərdə Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabarti, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus Azərbaycanın bu prosesdə rolunu yüksək qiymətləndirdilər. Bu fakt göstərir ki, Azərbaycanın koronavirusla mübarizə tədbirləri digər ölkələr üçün də nümunədir.

***- Hazırda ən önəmli məsələlərdən biri hazırkı şəraitdə əhalinin sosial müdafiəsi gücləndirilməsi tədbirləridir. Bu barədə nə deyə bilərsiniz?***

- Sosialyönümlü siyasət həyata keçirən dövlətimizin siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bunu cənab Prezident dəfələrlə vurğulayıb. Bu çətin günlərdə, yeni pandemiyaya qarşı mübarizə çərçivəsində reallaşdırılan tədbirlərin böyük bir qismi sosial sferanı əhatə edir. Belə ki, respublikamızda Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq insanların sağlamlığını, sosial müdafiəsini təmin etmək, iş yerlərini, əməkhaqlarını qorumaq məqsədilə operativ tədbirlər görülür. Bu məqsədlə 2.5 milyard manat həcmində sosial paket həyata keçirilir.

Ölkəmizdə pandemiyaya qarşı mübarizə çərçivəsində reallaşdırılan sosial məzmunlu tədbirlərin miqyası kifayət qədər genişdir. Dövlət bu məqsədlə böyük həcmlərdə maliyyə vəsaiti ayırır. Prezident İlham Əliyev bəyan edib ki, bizim üçün prioritet məsələ insanların sağlamlığıdır, insanların həyatıdır və insanların sosial müdafiəsidir. Dövlət başçısı bugünlərdə bir daha qeyd etdi ki, heç bir sosial proqram, sosial layihə təxirə salınmayacaq.

Hazırda pandemiya şəraitində biz sosial proqramların daha da genişləndirilməsinin şahidiyik. Sosial dövlət olan Azərbaycanda ədalətli resurs bölgüsü həyata keçirilir və qayğıya ehtiyacı olan bütün insanlar müvafiq dəstək proqramlarından bəhrələnirlər. Prezident İlham Əliyev ölkədə pandemiya şəraitində həssas qruplardan olan insanların sosial müdafiəsini ən mühüm məsələlərdən biri kimi qarşıya qoyub. Dövlət başçısı 2020-ci ilin birinci rübünün sosial-iqtisadi yekunlarına həsr olunan videokonfrans şəklində müşavirədə söylədiyi nitqində bununla bağlı qəti mövqeyini bildirərək deyib: “Həssas təbəqənin qorunması, hesab edirəm ki, indiki şəraitdə ən vacib məsələdir. Biz onlara sahib çıxmalıyıq, onlara dəstək verməliyik, onlara kömək göstərməliyik”. Respublikamızda pandemiya şəraitində digər istiqamətlərdə olduğu kimi, əhalinin həssas qrupların sosial müdafiəsinin təmin edilməsi məqsədilə reallaşdırılan tədbirlərin də əhatə dairəsi kifayət qədər genişdir. Bu barədə rəsmi məlumatlar ictimaiyyətə mütəmadi olaraq çatdırılır.

Əsas məqam odur ki, bu məsələdə vətəndaşlarımız birlik və həmrəylik nümayiş etdirir, cənab Prezidentin diqqət və qayğısını yüksək dəyərləndirirlər. Cəmiyyətin müxtəlif təbəqələrini təmsil edən insanların cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya çoxsaylı minnətdarlıq məktubları da bunu təsdiqləyir. Bütün bu faktlar göstərir ki, hazırkı şəraitdə dövlətimizin düşünülmüş siyasəti və milli birliyimiz bu çətin sınaqdan uğurla çıxmağımızda başlıca amillərdən biri olacaq.

***- Ölkəmizdə koronavirusla mübarizə ilə bağlı genişmiqyaslı tədbirlər həyata keçirildiyi halda radikal müxalifət, “5-ci kolon”un təmsilçiləri yenə də pozuculuqla məşğul olurlar. Buna münasibətiniz necədir?***

- Təəssüflər olsun ki, cəmiyyətimizdə çox kiçik sayda da olsa belə ünsürlər var. Onlar hər vəchlə dövlətin, iqtidarın siyasətinə kölgə salmağa cəhd edirlər. Yuxarıda qeyd etdiyim kimi, koronavirusla mübarizə şəraitində mili birlik və həmrəylik olduqca vacib amildir. Sevindirici haldır ki, bu baxımdan cəmiyyətimizdə heç bir problem yoxdur.

Cənab Prezidentin siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə siyasi mühit yeniləşir. Bu ağır pandemiya günlərində siyasi baxışlarından asılı olmayaraq siyasi qüvvələrin mütləq əksəriyyəti iqtidarın apardığı siyasəti dəstəkləyir, ölkədə yaranmış vətəndaş həmrəyliyinə öz töhfələrini verirlər. Ancaq əfsuslar olsun ki, antimilli, ermənipərəst qüvvələrlə bir sırada dayanan “5-ci kolon” yenə də çirkin əməllərindən əl çəkmir. Mənəvi və siyasi deqradasiyaya uğramış bu dairələr qarayaxmaları ilə şərəfsiz missiyalarını uzatmağa çalışırlar.

Belə bir deyim var: pis günə hər zaman düşmən sevinər. “5-ci kolon” təmsilçiləri isə koronavirusun yaratdığı çətinliklərdən divident qazanmağa çalışırlar. Məlum məsələdir ki, Vətənini sevən əsl vətəndaş, əsl vətənpərvər insan hər zaman vətəninin inkişafını, xalqının rifahını arzulayır, onun uğurları ilə qürurlanır və sevinir. Ancaq bu dairələr hər zaman hər bir şeydə pislik axtarır və pis hallara sevinirlər. Pandemiya dövrü də bunu göstərdi.

Hazırda bütün dünya koronavirus pandemiyası ilə mübarizə aparır. Bəşər insanı II Dünya müharibəsindən sonra ikinci dəfədir ki, belə ağır vəziyyətə düşür. Burada düşmən gözəgörünməzdir. Bəşəriyyətin bu vəziyyətdən çıxmasının ən əsas şərtlərindən biri birlik və həmrəylikdir. Hətta BMT müstəvisində qaldırılan məsələlərdən biri odur ki, belə bir şəraitdə müharibələr dayandırılsın. Buna baxmayaraq “5-ci kolon”, radikallar ölkəmizdə həmrəyliyi pozmağa cəhd göstərirlər.

Amma onlar qarşılarına qoyduqları pozucu məqsədlərinə nail ola bilməyəcəklər. Çünki xalq onları çoxdan siyasi səhnədən silib atıb. Bu cür ünsürlər ölkəmizdəki sabitliyi, xalqla hakimiyyət arasında olan birliyi heç zaman poza bilməzlər!

## ÜST: “Ən önəmli olan məsələ budur ki...”

İkinci dalğa birinci dalğada xəstələnməyən insanların yoluxması nəticəsində ortaya çıxa bilər. SİA-nın məlumatına görə, bunu bu gün keçirdiyi mətbuat konfransında Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı deyib.

Onun sözlərinə görə, əgər pandemiyanın qarşısının alınması üçün gördüyümüz tədbirlər səmərəsiz olsa, ikidən də çox dalğa olacaq: “Bu dalğalar yavaş-yavaş, kiçik halda yaranarsa, səhiyyə sistemi onların öhdəsindən gələ bilər. 2-ci, 3-cü dalğa məsələsindən qorxmayın. Ən önəmli olan məsələ budur ki, özümüzü qoruyaq, virusun insandan insana keçməsinin qarşısını alaq”.

## Dünyanın qeyri-adi kitabxanaları haqqında videoçarx hazırlanıb



Koronavirus pandemiyasının hökm sürdüyü dünya bütünlüklə virtual aləmdə fəaliyyət göstərir. Bu, planetimizin müxtəlif guşələrində yerləşən və indiyə qədər geniş oxucu kütləsi üçün qaranlıq qalan, qəribəlikləri, qeyri-adilikləri ilə diqqət mərkəzində olmağa layiq faktları, obyektləri və mədəni irs nümunələrini öyrənməyə və paylaşmağa imkan verir.

SİA-nın məlumatına görə, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi Sabunçu rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Mərkəzi kitabxanası #evdəqalməlumatsızqalma çağırışına qoşularaq məhz dünyanın ən məşhur qeyri-adi kitabxanaları haqqında videoçarx hazırlayıb.

# Erməni KİV-ləri: “Hakimiyyət Paşinyanın əlindən sürüşüb-çıxır”

***Ermənistanda koronavirus pandemiyası ilə yanaşı, siyasi böhran da davam edir. Baş nazir Nikol Paşinyanın isə vəziyyəti öz nəzarəti altında saxlamaq istiqamətində tətbiq etdiyi bütün cəhdləri isə puç olmaqdadır. Hətta vəziyyət o həddə qədər inkişaf edib ki, hökumət daxilində kəskin parçalanma sindromu yaşanır və hakimiyyət iki qanada parçalanıb. Digər tərəfdən, bu barədə erməni mediası da yazır. SİA xəbər verir ki, “İrates” nəşrinin yazdığına görə, artıq hakimiyyətin rıçaqları Nikol Paşinyanın əlindən sürüşüb-çıxmaq üzrədir.***





**Erməni nəşri: “O, hətta şəxsi komandasında birliyi təmin edə bilmir və müxtəlif cinahlar arasnda yaşanan gərginlik apogey həddinə çatıb”**

Xüsusilə, hakim komandadakı parçalanmaların və intriqaların qarşısının alınmamasına işarə edən erməni qəzeti həm də onu qeyd edir ki, vəziyyət apogey həddinə çatıb. SİTAT: “Hakimiyyət Nikol Pşainyanın əlindən sürüşüb-çıxır. O, hətta şəxsi komandasında birliyi təmin edə bilmir və müxtəlif cinahlar arasnda yaşanan gərginlik apogey həddinə çatıb. Onun arxasında kölgə hökumət işləyir, hüquq-mühafizə sistemi isə, saxta cinayət işlərinə tələb olunan istiqamət verə bilmir...”

“İrates” qəzeti eyham vurur ki, bu cür davam edərsə, Paşinyanın bir çıxış yolu qalır. Belə ki, onun yeganə silahı əvvəlki hakimiyyətin əlində olan qalıqları son qəpiyinə qədər mənimsəmək və onu “hüquqi” şəkildə “qablaşdırmaq”.

**“Hüquq-mühafizə sistemi artıq Paşinyanın əmrləri “əsasında” cinayət işlərini açmaq məsələsində gücsüzdür”**

Adıçəkilən media qurumu daha bir maraqlı məqama toxunaraq, Paşinyanın dalana dirəndiyi vəziyyətdə növbəti hansı addıma gedəcəyi proqnozunu irəli sürüb: “Mənbələrimizin təsdiq etdiklərinə görə, mövcud ağır vəziyyətdə ictimai rəyin diqqətini yayındırmaqdan ötrü Paşinyan ən çox sevdiyi metodu istifadə edəcək. Keçmiş vəzifəli şəxslərə qarşı növbəti cinayət işlərinin açılması mərhələsi başlanılacaq və buradakı adlar nə qədər səs-küylü, “talanlar” isə nə qədər böyük miqyaslı olacaqsa, ictimaiyyətin diqqəti daha çox buna konsentrə olacaq”.



Erməni nəşri buna baxmayaraq, hüquq-mühafizə orqanlarının belə halda zəif nöqtələrinin olduğunu da yazır. Daha dəqiq desək, orqanlar baş nazirin lüzumsuz bəyantlarını qanunuləşdirmək gücündə deyil.

“Lakin göründüyü kimi, hüquq-mühafizə sistemi artıq Paşinyanın əmrləri “əsasında” cinayət işlərini açmaq məsələsində gücsüzdür”, qeyd edən “İrates” sonda daha bir ilginc məqama toxunaraq yazır və bildirir ki, xalq istər Paşinyanın, istərsə də onun mətbuat karibinin küçə söhbətlərindən bezib. “Təsəvvürünüzə gətirib, baş nazirin mətbuat katibi rəsmi bəyanatlarını şəxsi mənbələrinin istinadı kimi təqdim edir”, deyə nəşr yazır. Bütün bunlar isə sübut edir ki, nəinki xarici siyasətində, eyni zamanda daxili siyasətində tənəzzülə uğrayan Nikol hakimiyyətinin demək olar ki, son zamanları yaşanır. O cümlədən, onsuz da bütün sferalar üzrə məhvə sürüklənən Ermənistanın həm də koronavirus pandemiyası fonunda deqradasiyası ümumiyyətlə ölkənin süqutu reallığını ortaya çıxarmaqdadır.

***Rövşən RƏSULOV***

# “Lavrovun bəyanatı Paşinyanın nüfuzuna ciddi zərbədir”

***“Qorçakov fondunun təşkil etdiyi onlayn formatda müzakirədə Rusiyanın XİN başçısı Lavrovun Qarabağ münaqişəsinin həlli ilə bağlı mərhələli planı dilə gətirməsi Ermənistanda böyük narahatlığa səbəb olub. Xüsusilə, Lavrovun BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrdə Azərbaycanın ərazi bütövlüyünün təsbit olunduğunu xatırlatması yerində deyilmiş fikirlər idi”. Bu fikirləri SİA-ya açıqlamasında politoloq Nəzakət Məmmədova deyib.***

O bildirib ki, Rusiyanın XİN başçısı Sergey Lavrov 2001-ci ildə Ki Uest danışıqları və ondan sonrakı danışıqları xatırlatmaqla, danışıqların əvvəllər bəzən Qarabağın erməni icmasının iştirakı ilə davam etdiyini, lakin sonradan stabilləşmiş formatda Minsk qrupu həmsədrləri, Azərbaycan və Ermənistan, ATƏT sədrinin şəxsi nümayəndəsi triqanometrik formatında davamlı olaraq baş tutduğunu vurğulayıb: “Məlumata görə, Azərbaycan və Ermənistan XİN başçıları qlobal böhran şəraitində atəşəkəsə ciddi şəkildə riayət olunması, ilk fürsətdə görüş keçirməyə dair razılığa gəlmişlər. Ermənistan XİN başçısı Zöhrab Mnasakanyan erməni cəmiyyətində Lavrovun açıqlamasından sonra yaranan təşvişi aradan qaldırmaq üçün Paşinyan hökumətinin danışıqları şəffaf apardığını, mərhələli həll planının 2014 və 2016-cı illərə aid olduğunu, indi bu məsələnin gündəmdə olmadığını bildirməsinə baxmayaraq Lavrovun ötən ilin aprelində mərhələli həll ilə bağlı sənəd imzalanmasını qeyd etməsi erməni şovinistləri sakitləşdirə bilməyib”.



Politoloq söyləyib ki, Ermənistan XİN sözçüsü cəmiyyətə öz şefi ilə eyni mövqeni təlqin etmək istəsə də, bizim üçün daha etibarlı mənbə Lavrovun fikirləridir: “Erməniləri şübhələndirən odur ki, daim sosial şəbəkələrdə aktiv olan Paşinyan bu məsələni şəxsən nə təkzib, nə də təsdiq edir. Üstəlik, Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş rəhbəri David Şahnazaryan da mərhələli həll planı üzrə danışıqların yekunlaşmaq üzrə olduğunu qeyd edib. Yəqin ki, Rusiya növbəti dəfə Qarabağ kartından istifadə etməklə Paşinyanın ermənilər arasındakı nüfuzuna ciddi zərbə vurmaq qərarına gəlib. Lavrov Ermənistanı qarışdıran bəyanat verməklə, Paşinyanın heç də demokrat olmadığını, xalqa açıq olmayan diplomatiya yeritdiyini, yaxud bunu xalqdan gizlətdiyini, ermənilərin istəyinə uyğun olmayan sülh planında iştirak etdiyini göstərərək, Paşinyana olan etimadı sarsıtdı. Paşinyan hakimiyyətinə müxalifətdə olan Ermənistan Milli Təhlükəsizlik Xidməti rəhbəri də sözsüz ki, Qarabağ klanına yaxın olan, Rusiyanın etibarlı şəxsidir. Onun da Lavrovun sözlərini təsdiq etməsi bunu sübut edir”.

N. Məmmədova vurğulayıb ki, Lavrovun artıq ötən ildən bəri bu istiqamətdə - mərhələli həll planı üzrə danışıqlar aparıldığını vurğulaması Ermənistanın söz sahibinin Rusiya olduğunu deməyə əsas verir: “İki il əvvəl bu ölkədə Rusiyapərəst Qarabağ klanı hakimiyyətdən gedib yerinə Qərbpərəst Paşinyan iqtidarı hakimiyyətə gəlsə də, bu ölkənin bütün vacib məsələlərində əsas qərarverən tərəf Rusiyadır. Qarabağ məsələsi ilə bağlı danışıqlar da Rusiyanın planı üzrə aparılır. Paşinyan buna müqavimət göstərmək iqtidarında deyil, üstəlik bunu xalqdan gizlədib”.

***Nailə Məhərrəmova***

# Simasızlıq simvolları- Leyla-Arif yunuslar

***Ataların gözəl bir sözü var: “su axar, yerin tutar”. Bu gün koronavirus epidemiyası radikal müxalifətdə olanların iç üzünü yaman açıb göstərdi. Onsuz da daxillərində olan xislətləri çoxdan üzə çıxmışdı, ancaq bu virusun tuğyan etməsi, ggörünür belə satqınların əlinə “göydəndüşmə” oldu. Və ermənidən betər erməniməşəli Leyla-Arif yunuslar indi də sosial şəbəkələrdə dünyanı ağuşuna alan bu epidemiyaya qarşı dövlətimizin apardığı uğurlu addımlarını həmişə olduğu kimi həzm edə bilmir ki, bilmir... Səbəb də bəllidir. Çünki sifarişlərini yerinə yetirən “sapı özümüzdən olan” baltalar Azərbaycanın bu müsbət reallıqlarından ciddi narahatlıq duyduqları üçün koronavirusun yayılmasına qarşı mübarizə məsələsi ilə əlaqədar sosial şəbəkələr vasitəsilə gerçəkliyə uyğun olmayan dezinformasiyalar ortaya atmaqla operativ və effektiv tədbirlərin üzərinə kölgə salmağa çalışırlar.***





Elə bu günlərdə Leyla-Arif yunuslar rejiminin uzadılmasını qəbul etmədiklərini, xalqı bu addıma qarşı çıxmaq çağırışı edirlər. Çünki erməni lobbisinin maliyyəsi əsasında “fəaliyyət” göstərən bu anti-milli ünsürlərin istəyi Azərbaycanda vəziyyətin gərginləşməsi, ölkəmizin xaos və anarxiya meydanına çevrilməsidir. Ona görə də onlar ölkədə koronavirus infeksiyasına yoluxanların və ölənlərin sayının artmasını, Azərbaycanın dərin sosial-iqtisadi problemlərlə üzləşməsini istəyirlər ki, bu məsələlərdən istifadə edərək Ermənistan mənafeyinə uyğun, dövlətimizin maraqlarına zidd təbliğat kampaniyası apara, vətəndaşla dövlət arasında etimadsızlıq mühiti yarada bilsinlər. Bu isə birmənalı olaraq Vətənə, xalqa və dövlətə xəyanətin bariz nümunəsi - əyani ifadəsidir.

Və “sapı özümüzdən olan balta”ların erməni sevgisi və erməni lobbisinə xidmət edən bir sıra cinayət tərkibli, özünün “hüquq müdafiəçisi” adlandıran erməniхislətli Leyla Yunus, həmçinin, onun əri Arif Yunus indii də “koronavirus məhbuslarına” “azadlıq” çağırışları etməklə elə zənn edirlər ki, xalqı ayağa qaldıracaqlar. Buna ağılsızlar inana bilər, lakin xalq onların keçdiyi uğursuz və biabırçı 27 il ərzində nifrətlə tarixin arxivinə atıb. Əslində, bu, kimsədə təəccüb də doğurmur. Çünki o, hələ əvvəlki dövrlədə, xüsusilə, AXC-Müsavat iqtidarı zamanlarında dövlətdə yüksək vəzifə tutarkən, xalqa və millətə xəyanət edib və özünü özünü “əzabkeş” kimi təqdim edən L.Yunus bu dəfə də öz murdar xislətindən əl çəkmir. Hətta yaxın zamanlar da bu satqınların Ermənistan xüsusi xidmət orqanlarının keçmiş rəhbəri David Şahnazaryanın növbəti dəstəyi ilə “Dəhşətli Azərbaycan reallıqlarından” bəhs edən əhvalatlarını kitab halında Ermənistan piştaxtalarına satışına hazırlaşdığı da bildirilir. Hətta bu satqınlar yaxın zamanlarda birdəfəlik layiq olduqları ölkəyə - Ermənistana köçməyi də planlaşdırıb. Bu yaxşı xəbərdir. Çünki Leyla-Arif Yunuslar koronavirusdan da betər sağalmaz viruslar olaraq elə layiq olduqları yerdə olsalar daha yaxşı olar. Çünki hara, necə, nə cür və hansı üsulla manipulyasiyalar etmələrinə rəğmən, qaçınılmaz sübutdur ki, Leyla-Arif yunuslar bütün fəaliyyətləri dövründə Azərbaycan xalqına düşmən münasibəti göstərib, beynəlxalq ictimaiyyətdə ölkəmiz haqqında mənfi rəy formalaşdırmağa çalışıb, bir tərəf erməni dilində yazıblar, o biri tərəf də Azərbaycan dilində!

Və belə olan halda Azərbaycan ictimaiyyəti Leyla və Arif Yunusları şiddətlə qınayır və onların yenidən həbsini anti-milli və cinayətkar, satqınçılıq fəaliyyətin məntiqi nəticəsi hesab edir. Və Leyla Yunus isə “Bizim adımızı tarixdən silmək mümkün olmayacaq” tipli bəyanatlar verməklə əri də daxil olmaqla adları Azərbaycanın şanlı tarixində Vətənə xəyanətin simvolu kimi qalacaq. Ona görə ki, bu “tarix” yalnız şərdən, böhtandan, xəyanətdən və cəmiyyətə vurulmuş qara ləkədən ibarətdir.

Və bu gün həyasızcasına Leyla Yunus “bizim adımızı tarixdən silmək mümkün olmayacaq” tipli bəyanatlar verməklə anlamır ki, onların adları Azərbaycanın şanlı tarixində Vətənə xəyanətin simvolu kimi qalacaq. Ona görə ki, bu “tarix” yalnız şərdən, böhtandan, xəyanətdən və cəmiyyətə vurulmuş qara ləkədən ibarətdir. Çünki onlara bu məsələdə çuğulluq edeənlər isə sapı özümüzdən olan paslı “baltalardır”. Amma bu “baltaların” heç birinin zərbəsi, təsir qüvvəsi ola bilməz. Bu qüvvənin qarşısını alan xalqın dövlətə, Prezidentinə bağlılığı faktorudur. Ona görə də, indi virusun tüğyan etdiyi bir zamanda “evdə qalmaq yox, mitinqlərə dəstək olmaq” şüarı ilə çıxş etməklə problemlərin həllinə nail olmaq olar” çağırışlarına münasibət bildirən xalq isə onlara qarşı ciddi tədbirlərin görülməsi tədbirlərinitələb elirlər. Və anlamalıdırlar ki, bu dəfə də heç nə onların istədikləri kimi olmayacaq, məhz xalqın istədiyi kimi olacaq. Bax, onda cığalçılıqları qalsın bir tərəfə, çuğulçuluqlarına görə də cavab verməli olacaqlar. Həm millətə, xalqa, həm də xarici ağalarına. Ona görə ki, xarici ağalarının verdikləri növbəti sifarişləri də nəticəsiz qalacaq və hətta qalmağa başlayıb da...

**RƏFİQƏ**

# Müxalifət tərbiyəsizlər etalonuna çevrilib

## *Və yaxud müxalifət liderləri Əli Kərimli kimiləri deqradasiyaya uğramış əxlaqlarını tərbiyə etməyə çağırdılar*

***Son günlər ən çox gündəmdə olan AXCP sədri Əli Kərimlinin sosial şəbəkələrdən “ev dustağı” olması və internetinin “kəsilməsi” ilə bağlı çağrışları və yalanları müxalifət liderlərinin əsəblərini daha da gərginləşdirib. Ancaq görünür, Ə.Kərimli də anlamırdı ki, “qaş düzəltdiyi yerdə” vurub... o kor olan gözlərini də çıxaracaq. Elə güman etdi ki, bəlkə növbəti bu fırıldağı baş tutacaq. Ancaq qaş düzəltdiyi yerdə, əksinə daha da belə bir vəziyyətdə “keflərinə soğan” doğradı. Və tərəfdarları Əli Kərimlinin vəziyyəti ilə bağlı ona dəsətək vermədiyinə görə digər müxalifət partiyalarını kəskin ittiham etməyə başladı.***

### “Satqın və fırıldaqçı Əli Kərimli indiki koronavirusdan da həyasızdır”

Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev satqın Əlişka Kərimlinin koronavirusdan da həyasız olduğunu bildirib: “Bu Əlişka Kərimlinin növbəti oyunudur. Bu ərəfələr hamı evdə qalmalıdır. Və dövlətin qanunlarına əməl də etməliyik. Bir də hər kəs çörəyi qulağına yox, ağzına yeyir. İndi heç kəsin internetini kəsmir, özün kontr yükləyisən və nə qədər danışırsan danışırsan. İndii gəldi Kərimlinin interneti kəsildi. Mən belə yalanları qətiyyən qəbul eləmirəm. Bu, özünü “əzabkeş” obrazında, xalqa canıyanan kimi sırımaq bəhanəsidir. O siyasi dələduzdur, satqın və öz liderinə nankor çıxan cinayətkardır. Sosial şəbəkələrin “ulduzu” olan Əlişkanın bu cür “tryukları” keçməyəcək. 27-30 ildir “mən müxalifətəm” deyərək, siyasi alverlə məşğul olub. Məqsədləri də ölkədə siyasi vəziyyti gərginləşdirmək və daha çox qrant almaqdır”.

Rəsul Quliyev: “Yaxşı olar ki, Əli Kərimli müxalifət olmamışdan öncə deqradasiyaya uğramış əxlaqlarını tərbiyə etsinlər”



Son vaxtlar sosial şəbəkələrdən dünyanı ağuşuna alan koronavirus epidemiyası qarşısında, hətta inkişaf etmiş dövlətlər belə aciz qaldığı halda insanların sağlamlığı və insan itkisinin daha az olması məqsədi ilə Azərbaycan dövləti tərəfindən düşünülmüş, ardıcıl addımlar atılmasına qarşı radikal müxalifətin, xüsusilə də AXCP sədri Əli Kərimli trollarının hərəkətləri tərbiyəsizlik və xalqa qarşı düşmənçilik adlandıran eks-spiker Rəsul Quliyev “AXCP-”Milli Şura”-nin siyasət adı ilə əsil əxlaqsızlnümayiş etdirdiklərini deyib: “Bir diqqət yetirək - siyasətə və sosial şəbəkələrə təhqir və söyüşü kimlər gətirib? Sözsüz ki, AXCP sədri Əli Kərimli siyasi karyerası boyunca fərarilik, satqınlıq, qorxaqlıq və xəyanət kimi “ilk”lərə imza atan müxalifət funksionerlərindən biridir. Belə ki, hər kəlməsində özünü “Rəsulzadəçi” kimi qələmə verən Ə.Kərimli ilk cəbhəçi idi ki, Azərbaycanın işğal tarixi (28 aprel 1920-ci il) ilə bağlı mitinqin keçirilməsinin əleyhinə olub, orada iştirak etməyib; Əli Kərimli ilk cəbhəçidir ki, qanlı 20 Yanvar hadisələri zamanı satqınlıq edib və onun Müdafiə Komitəsinin üzvü olduğuna dair vəsiqə “Krasnaya Zvezda” qəzetində çap olunub; Əli Kərimli ilk cəbhəçidir ki, lider adlandırdığı Əbülfəz Elçibəyin əleyhinə təbliğat aparıb, AXC-nin parçalanmasına səbəb olub. Rəqiblərini ləkələməyə, siyasətdən iyrəndirməyə, mövqelərindən çəkindirməyə çalışan Əli Kərimlinin trollara əsas məxfi tapşırığı da məhz qarşı tərəfin təhqir edilməsi ilə bağlı olur. Heç kəsə sirr deyil ki, Avropada “söyüş müxalifəti”nin formalaşdırılmasında Ə.Kərimlinin “xüsusi xidmətləri”, daha doğrusu, “xüsusi əməyi” var: Məhəmməd Mirzəli, Vidadi İsgəndərli, İnqilab Kərimov, Rəfail Piriyev və... kimi savadsız, etik dəyərlərdən və əxlaqdan uzaq olan tərbiyəsizlər...Və bir çoxlarından fərqli olaraq sosial şəbəkədə yazılan şərhləri də ağılsızlıq etalonunun tərbiyəsiz çıxışlarıdır”.

R.Quliyev qeyd edib ki, bu çıxşların tərzi və üslubu xaricdən təşkil edilmiş söyüş kampaniyalarının (ifrat tərbiyəsizlik, nadanlıq etalonu) müəlliflərinin mətbəxində yetişdirilməsi qənaəti yaradır: “Bu səviyyədə aşağı keyfiyyətli, ağılsız üzvləri olan Əli Kərimli kimilərin özlərini “müxalifət” adlandırmağa haqları yoxdur. Bu tip insanlar mütləqdir ki, müxalifət olmamışdan öncə deqradasiyaya uğramış əxlaqlarını tərbiyə etsinlər. Adətən, ağlı yerində olan liderlər buraxılmış səhvləri nəzərə alaraq yeni nəsl, yeni ağıllar yetişdirməyə çalışır. Azərbaycan Xalq Cəbhəsi Partiyası isə, təəssüf olsun ki, ağıldan kəm, nadanlar istehsal etmək maşınına çevrilib. Özünü ağıllı təqdim etmək üçün bu sayda insanları ağıldan şikəst etməsin!”.

***Rəfiqə Hüseynova***

# REAL-dan çayxana müxalifətinə: “düşük”, tərbiyəsiz” və “vicdansız”

***Natiq Cəfərli: “Onlara bənzər siyasətçilərin hər axmaq yazılarını, boğazdan yuxarı pafoslu, amma içiboş çıxışlarını bəyənən, paylaşan kəsim varsa - imkan verək elə onlarla birgə batsınlar, tarixin arxivinə rədd olsunlar”***

Radikal müxalifətin, xüsusilə “Milli Şura”da təmsil olunan və özlərini “ziyalı siyasətçi” kimi zorla ictimai rəyə sırımağa çalışan şəxslərin reallıqda həmin kəsimə aid olmamaları göz önündədir. Küçə təfəkkürü və çayxana müxalifətçiliyi əsasında “formalaşanların” kəslərin 27 ilddir ki, hələ də “biz gəlirik” şüarı altında var-gəlləri elə düşərgənin digər kəsimində fəaliyyət göstərən müxalif baxışlıları da sözün əsl mənasında bezdirib. Düzdür, bu gün həmin şinellərdən çıxan və konstruktivlik faktorlarına söykənənlər də var. Onlar zamanında çayxana müxalifətçiliyindən imtina etməklə, əslində az-çox olan reputasiyalarını qoruyub-saxlamağa imkan tapıblar. Amma hazırda dağıdıcılıq, pafosçuluq və intriqantçılıq üzərində fəaliyyət göstərənlər hələ də nəyəsə ümid edirlər.

Son zamanlar AXCP ilə REAL partiyası arasında baş verən virtual savaşdan gəlinən qənaətlər də bu cür düşünməyə vadar edir ki, ikincilərin birincilərin hücumlarına verdikləri cavablarında həqiqətlər mövcuddur.

### REAL rəsmisi: “Bu insanlar və onlara inananlar “demokratiya” sözünün “D” hərfindən belə xəbərləri yoxdur”

Misal üçün, müxalifətin radikal qanadı, yaxud düşərgənin “anası” kimi xalqı aldatmağa səy göstərən AXCP-”Milli Şura” cütlüyünün daha bir cavabını REAL partiyasının rəsmisi Natiq Cəfərli verib. O, saytların birində ictimailəşdirdiyi məqaləsində dünyada gedən proseslərlə yanaşı, ölkədəki radikal kəsim müxalifətin də fəaliyyətini maraqlı nüanslarla şərh edib. O, təəssüf hissi ilə bildirib ki, bu müxalifətin təməlində tərbiyəsizliklə yanaşı, həm də təhlükə amilləri dayanır: “27 ildir insanları aldadan, özünə “ziyalı” deyib ən aşağı “kəntoş” düşüncəsində olan savadsız, vicdansız, tərbiyəsiz adamlar var - ən pisi də odur ki, belələrinə inananlar da var. Bu insanlar və onlara inananlar “demokratiya” sözünün “D” hərfindən belə xəbərləri yoxdur, onların ayrı düşüncəyə, özəl həyata bir qram dözümlülüyü yoxdur, məhz buna görə də təhlükəli adamlardırlar”.

### “Bəzən biz özümüzə əl qatıb inanmış insanları ayıltmağa, düşünməyə dəvət edirik, sevinirəm ki, çox vaxt da bu alınır”

N.Cəfərli hələ də Ə.Kərilmiyə və ətrafına inananları nəzərdə tutaraq zaman-zaman onları doğru yola dəvət etdiklərini bildirsə də, həmin tərəflərin zombiləşərək, həqiqəti dərk etmək qabiliyyətində olmadıqlarına da işarə edib. Bu baxımdan, bu kimi qaragüruhçuların siyasi arenadan birdəfəlik getmələrinin daha münbit vasitə olduğunu dilə gətirib: “Bəzən biz özümüzə əl qatıb inanmış insanları ayıltmağa, düşünməyə dəvət edirik, sevinirəm ki, çox vaxt da bu alınır - insanlar ayılır və düşünməyə başlayır. Amma bütün çabalara rəğmən o kəsmə, o “ziya(lı)nvericilərə” inanmaq istəyən, onlara bənzər siyasətçilərin hər axmaq yazılarını, boğazdan yuxarı pafoslu, amma içiboş çıxışlarını bəyənən, paylaşan kəsim varsa - imkan verək elə onlarla birgə batsınlar, tarixin arxivinə rədd olsunlar”.



“Bu siyasi və ictimai “neandertallar”özlərini tanınmış, vacib adam zad saymağa başlayırlar”

Söz yox ki, hay-şivənçi müxalifətin bu addımları elə sadə ictimai rəy tərəfindən də ağılsızlıq adlandırılır, onlar tərəfindən edilən çağırışlara məhəl qoyulmur, əksinə rədd edilirlər. Bu baxımdan da yanaşma edən REAL rəsmisi əslində qarşı tərəfin düşüklüklərinə cavab verməyin, onları ciddiyə alınması kimi hesab edir.

“Onların düşük və mənasız fikirlərini nədən ciddiyə alıb reaksiya verək ki?! Bu zaman bu siyasi və ictimai “neandertallar”özlərini tanınmış, vacib adam zad saymağa başlayırlar. Ona görə də, iqnor edin, fikir verməyin, zatən sönübgedirlər...”, deyə N.Cəfərli fikirlərini bu kimi ilginc bənzətmə ilə başa çatdırıb.

**Rövşən RƏSULOV**

# Rəsul Quliyevdən Əli Kərimliyə: AXMAQ!

### Eks spiker: “Azərbaycan Xalq Cəbhəsi Partiyası ağıldan kəm, nadanlar istehsal etmək maşınına çevrilib”

Sabiq spiker, uzun müddət idi ki, siyasi arenada fikir bildirməyən Rəsul Quliyevin yenidən sosial şəbəkədə canlanması maraqdoğurucudur. Belə ki, onun artıq bir neçə ildir ki, “Milli Şura”dan ayrıldığı və həmin andan etibarən AXCP sədri Əli Kərimliyə, eləcə də ətrafına düşmən kəsildiyi bəllidir. Bunun isə bir neçə tərəfləri var...

R.Quliyev hələ ADP-də sədr olarkən, radikal müxalifətlə münasibətləri müəyyən qarşılıqlar hesabına normal idi. O, ADP-dən istefa verib, ACP-yə sədrliyə qayıdarkən isə, artıq həmin münasibətlər qarşıdurma səviyyəsinə çatmışdı. Daha dəqiq desək, maliyyələşmə və s. maddi məsələlərdə R.Quliyev pul kisəsinin ağzını düyünləmişdi.

Sabiq spikerin yenidən canlanması və qarşı tərəfə ağır ittihamlar irəli sürməsi maraq doğursa da, təəccüb də yaratmır

Yalnız “Milli Şura” yaradılarkən o uzun müddətli çək-çevirdən sonra qurumun maliyyə məsələlərində iştirak edərək, mitinqlərin keçirilməsinə köməkliklər göstərib. Eyni zamanda, eks-spikerin o zamankı Rusiyayönümlü “Milyarderlər İttifaqı” ilə də münasibətləri yaranmışdı. Çünki o da sirr deyil ki, “Milli Şura”nın yaranmasında əsas cinah məhz “Milyarderlər İttifaqı” olub. Ancaq adıçəkilən qurumda işlər çərçivədən çıxanda və Müsavat partiyası da daxil olmaqla bir neçə siyasi partiyalar oradan istefa verəndə R.Quliyev anladı ki, əsasında AXCP sədrinin şəxsi maraqları dayanan “Milli Şura” onun pul-parasına son qəpiyinə qədər yeməmiş əl çəkən deyil. Məhz həmin vaxtdan etibarən o kənara çəkilərək, oradakı “liderləri” ittiham atəşinə tutmağa başladı. Beləliklə, həmin hal uzun müddət davam etdi, hətta təhqirlərə qədər inkişaf etdi, lakin sonradan bu məsələlər seyrəldi. Bu baxımdan, sabiq spikerin yenidən canlanması və qarşı tərəfə ağır ittihamlar irəli sürməsi maraq doğursa da, təəccüb də yaratmır.

### Rəsul Quliyev: “Bu insanlar deqradasiyaya uğramış əxlaqlarını tərbiyə etməlidirlər”

Beləliklə, gücünü yenidən sosial şəbəkəyə səfərbər edən R.Quliyev bu dəfə yazıb ki, bir çoxlarından fərqli olaraq sosial şəbəkədə yazılan şərhləri oxuyur və əgər ağılsızlıq etalonu deyilsə cavab verir. Daha dəqiq desək, o Ə.Kərimlinin ona hücuma keçən trollarını ağılsız adlandırır.

“Özlərini cəbhəçi adlandıranlar tərəfindən yazılmış tərbiyəsiz yazıları oxuyanda millətin bəzi övladlarının belə aşağı səviyyədə olmalarından çox məyus oluram”, deyə qeyd edən sabiq sipker bütün bu



kimi tərbiyəsizliklərin arxasında bilavasitə Ə.Kərimlinin dayandığına işarə edib. Çünki sirr o da sirr deyil ki, nəinki indi, uzun illərdir ki, AXCP əxlaqsızlıq yuvasına dönüşüb və sosial şəbəkələrdə söyüş trollarının yaradılması da Ə.Kərimlinin “zəhmətidir”.

### “Özünü ağıllı təqdim etmək üçün bu sayda insanları ağıldan şikəst etmək xalqa qarşı ən böyük cinayətdir!”

R.Quliyev ifadələrini bir daha AXCP sədrinə tərəf kökləyərək yazır ki, söyüşlərin tərzi və üslubu arxasında Ə.Kərimlinin dayanması şübhə doğurmur: “Bu yazıların tərzi və üslubu xaricdən təşkil edilmiş söyüş kampaniyalarının (ifrat tərbiyəsizlik, nadanlıq etalonu) müəlliflərinin mətbəxində yetişdirilməsi qənaəti yaradır. Bu səviyyədə aşağı keyfiyyətli, ağılsız üzvləri olan bir komandanın özlərini müxalifət adlandırmağa haqları yoxdur. Bu tip insanlar mütləqdir ki, müxalifət olmamışdan öncə deqradasiyaya uğramış əxlaqlarını tərbiyə etsinlər”.

R.Quliyev Ə.Kərimlini ağılsız adlandıraraq onu xalqa qarşı cinayət etdiyini bildirib: “Adətən, ağlı yerində olan liderlər buraxılmış səhvləri nəzərə alaraq yeni nəsl, yeni ağıllar yetişdirməyə çalışır. Azərbaycan Xalq Cəbhəsi Partiyası isə, təəssüf olsun ki, ağıldan kəm, nadanlar istehsal etmək maşınına çevrilib. Özünü ağıllı təqdim etmək üçün bu sayda insanları ağıldan şikəst etmək xalqa qarşı ən böyük cinayətdir!”

Beləliklə, düşərgənin ənənəvi kəsimində vəziyyət yenidən qızışır və R.Quliyev əslində haqlı irad və ittihamlarını irəli sürərək, ona qarşı başladılmış kampaniyanı bu cür şərh edib və əlbəttə ki, bu suçlamalarında haqlı mövqedədir.

**Rövşən RƏSULOV**

## “Əhali məsuliyyətli olmalı, taleyi ilə zarafat etməməlidir”

“Mütəxəssislər virusun ikinci dalğasının baş qaldıracağından ehtiyatlanırlar. ÜST rəsmiləri ikinci dalğanın birinci dalğadan daha təhlükəli olacağını proqnozlaşdırırlar. Ümumi rəy bundan ibarətdir ki, ikinci dalğa başlayanda evdə oturan adamlar da virusa yoluxacaqlar. Hazırda cəmiyyət olaraq, bizim qarşımızda dayanan əsas vəzifə ikinci dalğanın gəlməsinin qarşısını almaqdır”. Bunu SİA-ya açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə deyib.

Təşkilat rəhbəri bildirib ki, dövlət virusun geniş yayılmasının qarşısını almaq üçün profilaktik tədbirlər görür, zəruri qərarlar qəbul edir. Vətəndaşların borcu həmin qərarlara riayət etməkdir: “Azərbaycan hüquqi dövlətdir. Biz Hindistanda yaşamırıq ki, karantin rejimini pozanları polis dəyənəklə döysün. Sağlamlıqlarının qeydinə həm də insanlar özləri qalmalıdırlar. Azərbaycanda koronavirus qurbanlarının sayının az olması heç də təhlükənin miqyasını kiçiltmir. Virus ortaya çıxanda Türkiyədə insanlar kütləvi şəkildə balıq tuturdular. O vaxt balıq tutanların çoxu indi koronavirusa tutulub. Əhali məsuliyyətli olmalı, taleyi ilə zarafat etməməlidir. Bir çörək üçün ailənin 4 üzvünün marketə getməsinə ehtiyac yoxdur. Koronavirusun dəhşətli bəla olduğunu anlamaq üçün ailə üzvlərimizdən, yaxınlarımızdan birinin virusa tutulması şərt deyil”.

**Ceyhun Rasimoğlu**

# Saxta “erməni genosidi” və erməni vəhşiliyi

***1965-ci ildən etibarən ermənilər hər il aprelin 24-nü “soyqırım günü” kimi qeyd edirlər. Onlar iddia edirlər ki, guya 1915-ci ildə türklər 1,5 milyon ermənini qırmışlar. Əslində isə həmin gün sadəcə olaraq İstanbulda və digər şəhərlərdə Osmanlı dövlətinə xəyanət edən erməni təşkilatlarının təcili olaraq bağlanması, onların rəhbərlərinin həbs edilməsi və sənədlərin ələ keçirilməsi haqqında daxili işlər naziri əmr vermişdi. Bundan sonra 2345 erməni xəyanətə görə həbs edilmişdi. Maraqlı orasıdır ki, belə bir əmrin veriləcəyindən ermənilər əvvəlcə xəbər tutmuşdular. Eçmiədzin katolikosu aprelin 22-də ABŞ prezidentinə teleqram vurmuşdu ki, erməniləri “türk fanatizminin özbaşınalığından xilas etsin”.***

Həmin teleqram aprelin 24-də, yəni əmr verilən günü artıq ABŞ prezidentinə çatdırılmışdı.Əslində, ermənilər aprelin 24-nü ona görə “soyqırım günü” kimi qeyd edirlər ki, köç haqqında qərardan sonra onların dövlət yaratmaq istədikləri 6 vilayətdə onsuz da azlıq təşkil edən ermənilərin sayı minimuma endirilmişdi. Yəni onların Türkiyə ərazisində dövlət yaratmaq xülyaları boşa çıxmışdı.. Fakt isə odur ki, istər Şərqi Anadolunun ruslar tərəfindən işğalı dövründə, istərsə də 1917-ci il inqilabından sonra rus qoşunlarının geri çəkilməsi zamanı onların silah-sursatını ələ keçirən ermənilər türklərə qarşı sözün həqiqi mənasında soyqırım törətmişdilər.

Sovet Rusiyası hökuməti 1917-ci il dekabrın 29-da “Türkiyə Ermənistanı” haqqında dekret qəbul etmişdi. Əgər Türkiyədə ermənilərə qarşı etnik təmizləmə siyasəti həyata keçirilmiş olsaydı Rusiya hökumətinin belə bir dekret verməsi gülünc olardı. Bu dekret Türkiyə ərazisində dövlət yaratmaq üçün ermənilərin iştahasını daha da artırmışdı. Ermənilər 1918-1920-ci illərdə fasilələrlə Ərzurumdan tutmuş, İrəvan quberniyası da daxil olmaqla böyük bir ərazidə türklərə qarşı soyqırım həyata keçirmişdilər. Məcburiyyət qarşısında qalan türk ordusu əks hücuma keçərək həmin əraziləri erməni silahlı qüvvələrindən təmizləmişdi.

Bəs görəsən, erməni tədqiqatçıları həmin dövrdə Türkiyədə nə qədər erməninin yaşadığını və nə qədərinin salamat qaldığını təsbit etmişlərmi?1914-cü ildə Tiflisdə dərc olunan “İmperator Rus Coğrafiya Cəmiyyətinin Qafqaz bölməsinin xəbərləri” seriyasının XXII cildinin 2-ci buraxılışı toplusunda A. Arakelyanın 22 may 1913-cü ildə adıçəkilən cəmiyyətin ümumi yığıncağında etdiyi “Kiçik Asiyanın erməni əhalisinin statistikası” başlıqlı məruzəsinin mətni çap olunmuşdur. Maraqlıdır ki, erməni müəlliflərinin uydurma soyqırımı ilə bağlı yazdıqları əsərlərin heç birində A.Arakelyanın yuxarıda adı çəkilən məqaləsinə istinad edilməmişdir. Səbəbi aydındır. Çünki A.Arakelyan 1913-cü ildə həmin məqaləni yazanda hələ Birinci Dünya müharibəsi başlamamışdı və xristian missionerlərinin nə zamansa ermənilərin Türkiyədə “kütləvi qırğınlara” məruz qoyulmalarını iddia edəcəklərini ağlına belə gətirə bilməzdi.A.Arakelyan yazır ki, 1912-ci ildə Balkanlarda müharibənin başlanmasından sonra”erməni məsələsi”yenidən gündəliyə gətirilmişdir. Həmin vaxt Türkiyə tərəfi bir daha erməni əhalisinin sayının ermənilər yaşayan ərazilərdə islahatlar aparılması üçün yetərli olmadığını irəli sürmüşdür. Bundan sonra Türkiyədəki erməni patriarxı ermənilərin sayı barədə daha dəqiq statistika təqdim etmişdir (xatırladırıq ki, ermənilər bir qayda olaraq həm də kilsələrdə siyahıya alınırdılar). Həmin statistikaya görə, yuxarıda adları sadalanan 6 vilayətdə ermənilərin ümumi sayı 1.018.000 nəfər olmuşdur. O cümlədən, Ərzurum vilayətində 215 min, Vanda 185 min, Bitlisdə 180 min, Xarputda 168 min, Diyarbəkirdə 105 min, Sivasda 165 min erməni yaşamışdır. Məqalə müəllifi qeyd edir ki, həmin vilayətlərdə yaşayan ermənilərin sayının üzərinə Kilikiyada (yəni Adana və Hələb vilayətlərində), habelə, İstanbulda və Osmanlı imperiyasının digər yerlərində yaşayan ermənilərin sayı gəlinərsə, onda imperiya ərazisində ermənilərin sayı çox böyük ehtimalla 1,5 milyon nəfərə çata bilər. Əslində, bu rəqəmlərin özü də erməni patriarxı tərəfindən xeyli dərəcədə şişirdilmişdi. Bütün rəsmi məlumatlar təsdiq edir ki, Birinci Dünya müharibəsi ərəfəsində Osmanlı Türkiyəsində təqribən 1,3 milyon erməni yaşamışdır.Erməni əhalisinin itkilərinin miqyasını müharibəyədək Türkiyə ərazisində yaşayan 1,3 milyon ermənin sayından xarici ölkələrə mühacirət edən ermənilərin sayını çıxmaqla müəyyən etmək olar. Statistik məlumatlara görə, müharibə ərəfəsində və ondan sonra xarici ölkələrə mühacirət edən ermənilərin sayı aşağıdakı kimidir: Rusiyaya (o cümlədən Cənubi Qafqaza) 420 min, Fransaya 35 min, Kanadaya 1244, ABŞ-a 34136, Yunanıstana 42200, Bolqarıstana 15 min, Kiprə 2500, digər Avropa ölkələrinə təqribən 50 min erməni köçmüşdür. ABŞ-da yaşayan erməni tarixçisi Riçard Hovannisyan yazır ki, müharibədən sonra Suriyada 100 min, Livanda 50 min, İordaniyada 10 min, Misirdə 40 min, İraqda 25 min, İranda 50 min erməni mühaciri qeydə alınmışdır. Bütün bu rəqəmləri üst-üstə gəldikdə 875 min nəfər edir. Bu rəqəmin üzərinə Türkiyədə qalıb yaşayan 123 min erməninin sayını əlavə etsək, cəmisi 998 min nəfər edir. Qeyri rəsmi məlumatlara görə, təqribən 100 min erməni özlərini kürd, suryani və yaxud türkman kimi qələmə verərək nəticədə köçürülmə prosesindən yayınmışlar. Deməli, 1,3 milyon ermənidən təqribən 1,1 milyonu sağ qalmışdır.

Ermınilər türk-müsəlman xalqlarına.o cümlədən azərbaycanlılara qarşı vəhşiliklərinə uydurma “gehosidləri”lə haqq qazandırır, onun qisasını aldiqlarını bildirirlər .

Beyləqan rayonu Örənqala kənd sakini, Şuşa həbsxanasında əsir saxlanılmış Camalov Fədai İsmayil oğlunin dedikləri:

- 1993-cü il sentyabrın 23-dən 1996-cı il oktyabrın 5-dək Xankəndi uşaq xəstəxanasında, sonra isə Şuşa həbsxanasında saxlanılmışam. Şuşa həbsxanasında olanda baş leytenant rütbəsində olan Qor adlı erməni zabiti Ağdam rayon sakini təxminən 50 yaşında olan İldırım adlı şəxsi və Beyləqan rayonu İkinci Aşıqlı kənd sakini Qurbanov İlqarı dəyənək ilə döyərək qətlə yetirdi.

Şuşa həbsxanasında nəzarətçi işləyən Slavik adlı erməni əsir və girovlara, o cümlədən F.Camalova müxtəlif işgəncələr verirdi. Füzuli rayon sakinləri İlham və Mirzəli kişini döyərək öldürdülər.

Beyləqan rayonu Dünyamalılar kənd sakini Sarıyev Əli Zöhrab oğlunun dedikləri:

1993-cü il oktyabrın 31-dən 1995-ci il iyunun 8-dək Xankəndidə və Şuşa həbsxanasında girovluqda qalmışam. Bu müddət ərzində erməni quldurlarının törətdikləri vəhşilikləri və cinayət əməllərinin bir çoxunun şahidi olmuşam. 1994-cü ildə Şuşa həbsxanasında saxlanılarkən, əvvələr yanğından mühafizə xidmətində, həmin dövrdə isə Xankəndi şəhərinin hərbi komendantı vəzifəsində işləyən polkovnik rütbəli, Samvel Babayanın əlaltısı olan Aşot adlı erməninin əmri ilə Bakı şəhərindən olan Rauf adlı şəxsə alçaldıcı işgəncə verildi. Belə ki, Raufun bir gün sonra dəyişdiriləcəyindən xəbər tutan Aşot digər əsir və girovların gözü qarşısında əlindəki dəyənəyi onun arxasına soxmağı əmr etdi. Onun tabeçiliyindəki erməni əsgəri bunu icra etdilər.

Səhəri gün huşsuz vəziyyətdə olan Rauf dəyişdirilərək Bakı şəhərinə göndərilir. Ermənilərin bu vəhşiliyi Raufun bağırsaqlarından on santimetr kəsilərək götürülməsinə səbəb olur.

1993-cü ildə ermənilər Füzuli rayonu Gorazilli kənd sakini Nuxiyeva Fəridə Vaqif qızının kənddəki toy məclisinə hücum edərək onu, atası Nuxiyev Vaqif Qutais oğlunu, anası Tamaşa qızı, uşaqları Mətanət, Arzu və 19 nəfər digər kənd sakinlərini girov götürür. Ermənilər onları Hadrutda, Xankəndində, sonra isə Şuşa türməsində saxlayaraq müxtəlif işgəncələr verir. Nəticədə işgəncələrə dözməyən Vaqif Nuxiyev vəfat edir.

Bu cinayət fakt ilə bağlı məlumata malik olan Füzuli rayonun Gorazilli kənd icra nümayəndəsi Şirinov Mətləb Nadir oğlundan alınmış izahatda göstərilir ki, 1993-cü ilin iyul ayının 2-də erməni quldurları Gorazilli kəndindən 20 nəfər azərbaycanlı girov götürüblər. Erməni quldurları girov götürdükləri kənd sakinlərinin Hadrut istiqamətinə apararkən onlardan birinə Məmmədov Bəyəndik Qəhrəman oğluna işgəncə verərək öldürüblər. Girovluq dövründə Nuxiyev Vaqif Qutais oğlu ermənilərin əsirlərlə pis rəftar etməsinə, qadınların namusuna toxunmalarına, girovlara işgəncələr verməlerinə, xüsusən cavan-yeniyetmə oğlanların sifətlərinə siqareti yandırıb basmalarına və s. digər əməllərinə dözməyərək özünə bir neçə dəfə qəsd etmək istəyib, lakin ermənilər buna imkan verməyiblər. Nəhayət bir gün əsir və girovların sırasından çıxaraq erməni əsgərlərinin üstünə yeriyərək onlardan birini vurur və bundan sonra erməni faşistləri ona müxtəlif işgəncələr verməyə başlayır. Əllərini, qollarını sındırır və öldürürlər.

Zori Balayan kimilər nəinki uydurma tarixlərini bədiiləşdirirlər, eyni zamanda heç çəkinmədən başımıza gətirdikləri faciələrimizdən həzz aldıqlarını yazırlar. Zori Balayanın “Ruhumuzun canlanması” kitabındakı bəzi məqamlara diqqət yetirmək kifayətdir ki, ermənilərin dünən də, bu gün də türkün başına gətirdikləri oyunlar aydınca görünsün. Xocalı faciəsindən sonra Zori Balayan keçirdiyi sevinc hislərini qələmə alaraq yazır: “...sadəcə xalqının qəlbi sökülən və acının atəşinə atılan erməni bu sətirlərdən qürur və məmnuniyyət duya bilir.

***Vahid Ömərov***
***Fəlsəfə üzrə fəlsəfə doktoru***


Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

Son səhifə

2 may

# “Barselona” 19 yaşlı futbolçuya “elçi düşüb”




***İspaniyanın “Barselona” futbol klubu Niderlandın “AZ Alkmar” klubunun gənc hücumçusu Miron Boadyunu transfer etməyə çalışır. “Mundo Deportivo” nəşri yazır ki, “Barselona” rəhbərliyi M.Boadyunu “İnter”dən almaq istədiyi digər hücumçu - Lautaro Martinesə alternativ kimi görür.***

M.Boadyu bu mövsüm Niderland çempionatında keçirdiyi 39 oyunda 20 qol vurub, 13 məhsuldar ötürmə edib. Hazırda futbolçunun bazar qiyməti 18 milyon avrodur. Gənc olmasına baxmayaraq, o, Niderland millisində oynamaq fürsəti də əldə edib.

# PSJ klubu Fransa çempionu elan edildi




Fransa Futbol Federasiyası Liqa-1-də PSJ klubunu çempion elan edib. Bu barədə “L’Equipe” məlumat yayıb. Federasiyanın qərarına əsasən, pandemiya- səbəbindən çempionatın dayandırıldığı mərhələdəki turnir cədvəli olduğu kimi saxlanılıb və yekun cədvəl olaraq qəbul edilib.

Qeyd edək ki, PSJ koronavirus pandemiyası ilə əlaqədar çempionat təxirə salınmazdan əvvəl ehtiyatda bir oyunu qalmaqla cədvəldə ikinci olan “Marsel”dən 12 xal öndə olub.

Bu, PSJ-nin sayca doqquzuncu çempionluğudur və həmingöstəriciyə görə Paris təmsilçisi “Marsel”ə çatıb.

# Bakıda narkotik satışı ilə məşğul olan silahlı şəxs saxlanılıb



Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən daha bir əməliyyat zamanı narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxs saxlanılıb.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş İdarə əməkdaşlarının paytaxtın Suraxanı rayonunda keçirdikləri tədbir zamanı Bülbülə qəsəbəsində yaşayan Asif Süleymanov tutulub. Onun üzərində şəxsi axtarış aparılan zaman 12 qram heroin aşkar edilib. Əməliyyat tədbirlərinin davamı olaraq həmin şəxsin yaşadığı evə baxış keçirən polis əməkdaşları oradan əlavə 2 kiloqram heroin, müvafiq sənədləri olmayan 1 ədəd “Dragon” markalı vinçester tipli ov tüfəngi və həmin silaha aid 11 ədəd patron aşkar edərək götürüblər. Asif Süleymanov ifadəsində narkotik vasitəni şəxsiyyəti istintaqa hələlik məlum olmayan İran vətəndaşından satmaq niyyəti ilə Biləsuvar rayonunda aldığını bildirib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb. Asif Süleymanov cinayət əlaqələrinin müəyyən edilməsi istiqamətində əməliyyat-istintaq tədbirləri davam etdirilir.

# Diqqət: Zəif eşitmə zamanı müayinə

***Dünya əhalisinin 10 faizi zəif eşitmədən əziyyət çəkir. Eşitmə dərəcəsini müəyyən etmək üçün müxtəlif aparat və cihazlar var. Eşitmənin müayinəsi audiometriya adlanır və onu istənilən yaş qrupunda olanlara tətbiq etmək mümkündür. Körpə ananın səsinə reaksiya vermirsə, öz adını tanımırsa, belə halda ağır eşitmənin dərəcəsini dəqiq müəyyən etməyə imkan verən test aparmaq lazım gəlir.***

Akademik M. Mirqasımov adına Respublika Klinik Xəstəxanasının otolarinqoloqu Gülyaz Kazımova AZƏRTAC-a deyib: “Əgər xarici qulaq keçəcəyində qulaq kiri tıxacı əmələ gəlibsə, onun xaric edilməsindən sonra test yoxlaması aparmaq olar. 18 yaşına qədər olanlar qulaqcıqdan istifadə edə bilməsələr də, bu yaşdan sonra işinin dərəcəsi imkan verdiyi halda eşitməni yaxşılaşdırmaq üçün qulaqcıq cihazından istifadə edə bilərlər.



4 yaşından yuxarı uşaqlara oyun audiometriyası tətbiq edilir. Onları səssiz kabinədə salaraq təşkil edilən xüsusi oyun zamanı müəyyən səs dalğaları ötürülür və müayinə aparılır. Yetkin adamlarda isə qulaqcıq vasitəsilə desibellərlə səsə şiddət verilir. Xəstənin hansı səs şiddətində eşitdiyi qeyd olunur, aparatda audioqramma yaranır. Nəticədə həm uşaqların, həm də böyüklərin eşitmə dərəcəsinə uyğun cihaz seçilir”.

Həmin aparatların müxtəlif növləri var. Qulaq arxası cihazlar böyükölçülü və nisbətən kiçikölçülü olur. Qulaq içi cihazlar isə fərdi olaraq hazırlanır. Xarici qulaq keçəcəyi nə qədər uzun və enli olarsa, qulaq içi cihaz da o qədər görünməz olur.

Səslərin daha yaxşı eşidilməsinə kömək edən hər iki cihaz batareya ilə işləyir. Müayinədən sonra təyin olunan cihaz haqqında istifadəçiyə məlumat verilir.

# Bu gün Bakıda küçələr yenidən dezinfeksiya olunacaq



Bakıda küçə və prospektlərdə yenidən dezinfeksiya işləri aparılacaq. Paytaxtın kommunal strukturlarından SİA-ya verilən məlumata görə, 02.05.2020-ci il tarixdə, hərəkətin intensivliyinə və sıxlığına uyğun olaraq seçilmiş, şəhər əhəmiyyətli 200-dən artıq əsas küçə və prospektlərdə xüsusi kimyəvi maddələrlə növbəti dəfə gücləndirilmiş dezinfeksiya işləri aparılacaq.

Bununla əlaqədar maddələrin qəbul olunmuş müəyyən toksikliyini nəzərə alaraq sakinlərdən ciddi zərurət yarandığı təqdirdə qeyd olunan tarixdə küçəyə çıxmamaq xahiş olunur.

# ŞOK: Xəstəxanadan qaçdı, bütün ailəsini koronavirusa yoluxdurdu!



Xəstəxanadan qaçan pasiyent tutulub stasionar şöbəyə qaytarılana qədər bütün ailəsini koronavirusa yoluxdurub. RT-nin məlumatına görə, hadisə Rusiyanın Blaqoveşensk şəhərində qeydə alınıb. Tibb işçiləri onun ailəsini koronavirus testindən keçirib. Məlum olub ki, ailədə bir aylıq körpə uşaq da daxil olmaqla, beş nəfər COVID-19-a yoluxub.

Ailənin yaşadığı mənzil və binanın girişi dezinfeksiya olunub. Karantin qaydalarının qorunmasına polis nəzarət edir. Hüquq-mühafizə orqanlarından verilən məlumata görə, pasiyentxəstəxananın birinci mərtəbəsindəki pəncərədən qaçıb. Ona qarşı cinayət işi qaldırılıb. Qayda pozucusunu 700 min rubla (16 000 AZN) qədər cərimə, yaxud iki ilə qədər azadlıqdan məhrumetmə cəzası gözləyir.

***Baş redaktor:***

**Bəhruz Quliyev**

***Baş redaktorun müavinləri:***

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**